# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 dekabr 2025-ci il, cümə axşamı
№ 231 (7058)
Qiymətі 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## Azərbaycan Prezidenti BƏƏ-də işgüzar səfərdə...

Bax səh. 2



## Üçüncü deportasiya...

## Heydər Əliyevin imzaladığı tarixi Fərmandan 28 il ötür

Bax səh. 3

## Dövlətin növbəti sosial qayğısı

Bax səh. 4

## Həmkarlar təşkilatlarının işində yeni mərhələ...

Azərbaycanda həmkarlar ittifaqlarının tarixi XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində neft sənayesinin çiçəklənməsi ilə milli sahibkarların yetişdiyi, Bakının böyük sənaye mərkəzinə çevrildiyi və fəhlə hərəkatının genişləndiyi dövrə gedib çıxır. 1904-cü il dekabrın 30-da "Elektrosila" zavodunda neft sənayeçiləri ilə fəhlələr arasında ilk kollektiv müqavilə imzalanıb. 1905-ci il oktyabrın 17-də isə konka (at dəmir yolu) işçiləri həmkarlar ittifaqı təşkilatı yaratdılar. Artıq 1906-cı ilin sonunda Bakıda mövcud olan 18-20 həmkarlar ittifaqının üzvlərinin sayı 12 min nəfəri ötmüşdü. Qafqazdakı həmkarlar ittifaqının 75 faizi Bakı şəhərində cəmlənmişdi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə ölkə həyatının bütün sahələrində olduğu kimi, həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətində də xeyli dəyişiklik baş verdi. 1993-cü il fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Şurası özünü buraxaraq səlahiyyətlərini yeni təsis olunan konfederativ tipli Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) verdi. Bu təşkilatın yaranması ilə həmkarlar ittifaqlarının fəaliyyətində müsbət dəyişikliklər başlandı.

AHİK-in müstəqil qurum kimi formalaşması isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında 1994-cü ilin fevralında postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul edilməsi ilə həmkarlar ittifaqlarının...

Bax səh. 4



## Şuşadan başlayan yol...

Bax səh. 2

## Media Savadlılığı Həftəsi davam edir...

Bax səh. 7

## ABŞ-ın yeni strategiyası: Avropasız dünya nizamı

Bax səh. 7

## Nikol kimdən və nədən qorxur?

Bax səh. 7

## Birlikdə inkişaf və əməkdaşlıq

Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda icra olunacaq iki texniki yardım layihəsini təsdiqləyib. Ümumi məbləği 2 milyon dollar təşkil edən regional layihələrin AİB-in donorluq etdiyi Xüsusi Texniki Yardım Fondu vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulur. Maliyyə tutumu 1,5 milyon dollar olan birinci regional layihə "Birlikdə ACT: Mərkəzi və Qərbi Asiyada sürətlənirik, inkişaf və əməkdaşlıq edirik" adlanır və Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir. Bu, Cənubi Qafqaz-Mərkəzi Asiya coğrafiyasında birgə kommunikativ əməkdaşlığı dəstəkləmək məqsədi daşıyır. Layihə dəyəri 500 min dollar olan "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin təşviqi: 4-cü alt layihə" isə 13 ölkəni əhatə edir. Həmin ölkələrin sırasına ilk layihədəki dövlətlərdən başqa, Sakit okean bölgəsinin üzvləri də daxildir.

AİB-in açıqlamasına görə, birinci layihə satınalmalar sahəsində potensialın gücləndirilməsinə, layihələrin hazırlıq səviyyəsinin artırılmasına, həmçinin Mərkəzi və Qərbi Asiya Departamentinin inkişaf etməkdə olan üzv ölkələrində portfel və layihələrin hazırlanmasına yönəlib. Texniki yardımın satınalmalar, müqavilə və layihə idarəetməsi sahəsində potensialın gücləndirilməsi üçün beynəlxalq və milli məsləhətçilərin cəlb edilməsi hesabına portfel keyfiyyətini yaxşılaşdıracağı və reallaşdırmada baş verə biləcək gecikmələri azaldacağı gözlənilir. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə sonradan tətbiq edilməsi üçün analitik tədqiqatlar aparılacaq və...

Bax səh. 5




## 20-ci sanksiya paketinə doğru...

Bax səh. 6



## Ukrayna təzminat prosesinə start verir

Bax səh. 6

# Azərbaycan Prezidenti BƏƏ-də işgüzar səfərdə...

## İlham Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşüb, bir sıra tədbirlərdə iştirak edib









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkədə səfərdədir.

AZƏRTAC xəbər verir ki, dekabrın 17-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Əbu-Dabidə keçirilən "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində dəvətə görə təşəkkür etdi və bu tədbirin Birləşmiş Ərəb Əmirliklərində yüksək səviyyədə təşkil olunması münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlətimizin başçısının BƏƏ-yə, BƏƏ Prezidentinin isə Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların və müxtəlif səviyyələrdə həyata keçirilən digər qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında roluna toxunuldu.

Görüşdə Azərbaycan və BƏƏ prezidentləri əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, "Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə idmançıların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyini oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar ümumilikdə 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək, 2025-ci ildə keçiriləcək "Gələcəyin Oyunları" turnirinə ev sahibliyi etmək hüququ qazanıb.

Daha sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

# Şuşadan başlayan yol...

## Strateji müttəfiqlikdən institusional təhlükəsizlik modelinə doğru

## Azərbaycan-Türkiyə hərbi müttəfiqliyi yeni təhlükəsizlik arxitekturasının təməlini daha da möhkəmləndirir

Azərbaycanın 2020-ci il Vətən müharibəsində qazandığı zəfər, eləcə də 2023-cü il antiterror əməliyyatları və bunun fonunda formalaşan yeni geosiyasi reallıqlar regionda mövcud təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişib. Artıq Cənubi Qafqazda güc balansı, təhlükəsizlik mexanizmləri və siyasi münasibətlər əvvəlki status-kvo ilə deyil, yeni reallıqlar əsasında müəyyənləşdirilir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə təkcə milli suverenliyini deyil, eyni zamanda, regionda ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni təhlükəsizlik mənzərəsinin əsasını qoydu.

Bu yeni siyasi-hərbi situasiya region ölkələrini də təhlükəsizliklə bağlı yanaşmalarına yenidən diqqət yetirmək zərurəti formalaşdırıb. Artıq Cənubi Qafqaz üçün təhlükəsizlik indeksləri yalnız klassik hərbi güc amili ilə deyil, strateji tərəfdaşlıq, müttəfiqlik, qarşılıqlı dəstək və koordinasiya mexanizmləri ilə ölçülür. Bu mənada, Azərbaycan ilə Türkiyə arasında münasibətlər xüsusi çəkisi ilə seçilir. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətləri strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə yüksəltməklə regionda yeni siyasi-hərbi situasiya formalaşdırdı. Hərtərəfli əməkdaşlıq, qarşılıqlı yardım, fövqəladə hallarda bir-birinə dəstək kimi müddəalar Azərbaycan - Türkiyə tandemini regional təhlükəsizliyin əsas sütununa çevirib. Məhz bu kontekstdə "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" xüsusi strateji əhəmiyyət kəsb edir.

### Anlaşma Memorandumunun gələcək təhlükəsizlik arxitekturasına töhfələri



Qeyd edək ki, bu ilin iyulunda imzalanmış Anlaşma Memorandumu iki ölkənin müdafiə sahəsində əməkdaşlığını daha sistemli və institusional səviyyəyə daşıyır. Bu sənəd təkcə texniki-hərbi əməkdaşlıq çərçivəsi deyil, eyni zamanda, regional təhlükəsizlik baxımından strateji xarakter daşıyan siyasi sənəddir. Memorandumda tərəflər arasında müdafiə sahəsində qarşılıqlı etimadın artırılması, birgə hərbi planlaşdırma, təlim və tədris proseslərinin genişləndirilməsi, əməliyyat uyğunluğunun təmin edilməsi kimi mühüm müddəalar əksini tapır. Başqa sözlə, Memorandum yalnız hərbi əməkdaşlıq və hərbi təhlükəsizlik sahəsindəki məsələləri əhatə edir və bu çərçivədə yalnız müdafiə sahəsində qarşılıqlı yardım, təlim, təchizat və tərəflərin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını ehtiva edir. Sənədin əsas üstünlüklərindən biri onun preventiv xarakter daşımasıdır. Yəni memorandum hərbi təhlükələrə yalnız reaksiya vermək deyil, potensial risklərin qabaqlanması və qarşısının alınmasını hədəfləyir. Bu yanaşma regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət edir.

Eyni zamanda, memorandum Azərbaycan-Türkiyə hərbi ittifaqının uzunmüddətli perspektivdə Cənubi Qafqaz üçün yeni təhlükəsizlik arxitekturasının əsas dayaqlarından biri olacağını göstərir. Bu əməkdaşlıq regional və qlobal güclərə açıq mesajdır: bölgədə təhlükəsizlik artıq güclü, koordinasiyalı və hüquqa əsaslanan müttəfiqlik üzərində qurulur.

Anlaşma Memorandumunun məqsədi qarşılıqlı olaraq tərəflərin dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın yeni səviyyəyə qaldırılmasıdır. Sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Sənəd 8 maddədən ibarətdir. Razılığa əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və buna dair milli qanunvericiliklərində müəyyən edilmiş qaydaya uyğun olaraq həyata keçirilir. Tərəflər dinc dövrdə yuxarıda qeyd edildiyi kimi mütəmadi olaraq birgə hərbi təlimlər və manevrlər keçirirlər. Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat əməkdaşlığını gücləndirirlər, buna müvafiq olaraq, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları (məxfi, tam məxfi, xüsusi əhəmiyyətli) bir-birləri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə bilərlər. Anlaşma Memorandumuna tərəflərin qarşılıqlı yazılı razılığına əsasən istənilən zaman düzəliş və ya əlavələr edilə bilər. Tərəflərdən hər biri digər tərəfə ləğvetmə niyyətini diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildirərək Memorandumu ləğv edə bilər. Bu halda Memorandum həmin bildirişin alındığı tarixdən 60 gün sonra ləğv edilir. Anlaşma Memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir, üçüncü dövlətlərə qarşı yönəlmir və regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verir".

### Şuşa Bəyannaməsinin məntiqi davamı...



Dekabrın 16-da Azərbaycanın Milli Məclisi tərəifndən ratifikasiya olunmuş Anlaşma Memorandumu mahiyyət etibarilə Şuşa Bəyannaməsinin praktiki davamı kimi çıxış edir. Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərinin siyasi və ideoloji çərçivəsini müəyyənləşdirirdisə, bu memorandum həmin çərçivəni konkret hərbi-təhlükəsizlik mexanizmləri ilə zənginləşdirir. Bu sənəd Şuşa Bəyannaməsində nəzərdə tutulan qarşılıqlı hərbi yardım, təhlükəsizlik sahəsində koordinasiya və ortaq maraqların müdafiəsi prinsiplərini real alətlərə çevirir. Nəticədə Azərbaycan-Türkiyə müttəfiqliyi deklarativ xarakter daşımır, funksional və operativ mexanizmə çevrilir.

Memorandum bölgədə təhlükəsizlik alətinin daha da güclənməsinə imkan yaradır. Xüsusilə postmünaqişə dövründə yaranan risklərin idarə olunması, sabitliyin qorunması və mümkün təhdidlərin neytrallaşdırılması baxımından bu əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Şuşa Bəyannaməsində də tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərilməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bəyannamədə iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi kimi müddəalar öz əksini tapıb. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Beləliklə, Anlaşma Memarandumu Şuşa Bəyannaməsinin ruhuna uyğun olaraq regionda sülhə, sabitliyə və qarşılıqlı hörmətə əsaslanan yeni təhlükəsizlik modelinin formalaşmasına xidmət edir.

### Əməkdaşlığımız regiona sabitlik və uzunmüddətli təhlükəsizlik təlqin edir...

Azərbaycan-Türkiyə əməkdaşlığı bu gün təkcə iki qardaş ölkənin münasibətləri deyil, bütövlükdə region üçün sabitlik, inkişaf və təhlükəsizlik mənbəyidir. Qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu bu əməkdaşlığın daha da dərinləşdiyini və strateji xarakter aldığını nümayiş etdirir. Bu sənəd göstərir ki, Azərbaycan öz təhlükəsizliyini güclü müttəfiqlik üzərində qurur, regional sülh və sabitliyin təminində məsuliyyətli mövqe tutur. Türkiyə ilə formalaşan bu strateji tandem Cənubi Qafqazda qarşıdurma deyil, əməkdaşlıq mühitini təşviq edir.

Nəticə etibarilə, Azərbaycan-Türkiyə hərbi-siyasi əməkdaşlığı regiona təhlükə yox, əksinə, sabitlik, proqnozlaşdırıla bilən inkişaf və uzunmüddətli təhlükəsizlik təlqin edir. Bu model gələcək üçün etibarlı və dayanıqlı təhlükəsizlik arxitekturasının əsasını təşkil edir.

***Pərviz SADAYOĞLU***

# Üçüncü deportasiya...

## Heydər Əliyevin imzaladığı tarixi Fərmandan 28 il ötür

Tarix unutqanlığı bağışlamır. Son 200 ildə xalqımızın üzləşdiyi faciələrdən ibrət götürməliyik. Əks halda, yeni-yeni müsibətlərlə üzləşə bilərik. Bu mənada, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan və qısa müddətdə ölkəni sabitliyə, milli birliyə qovuşduran, inkişafa istiqamətləndirən Prezident Heydər Əliyevin imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman müstəsna önəm daşıyır. Fərmanda vurğulandığı kimi, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalıb.

Həmin sənəd tarixin bu günündə - 18 dekabr 1997-ci ildə imzalanıb. Aradan 28 il ötüb. Zaman keçdikcə bu sənədin milli yaddaşımızın təzələnməsi, tariximizin araşdırılması nöqteyi- nəzərindən nə qədər böyük əhəmiyyət daşıdığı daha dərindən dərk olunur.

### 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

**Bakı şəhəri, 18 dekabr 1997-ci il**
**№ 656**

## Soydaşlarımızın 1948-1953-cü illərdə üzləşdiyi amansız faciə

İndiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Burada tarix boyu azərbaycanlılar yaşayıblar. Bunu təsdiqləyən çoxsaylı sənədlər və xəritələr var. Günümüzə qədər gəlib çatan həmin xəritələrdə onlarca yaşayış məntəqələrinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir və bunlar əyani şəkildə təsdiqləyir ki, ermənilər bu yerlərdə sonradan məskunlaşdırılıblar. Bundan sonra torpaqlarımızın ilhaqına start verilib. XX əsr bu baxımdan xalqımız üçün bir sıra faciələrlə yadda qalıb. Belə ki, ötən yüzillikdə indiki Ermənistan ərazisinin aborogen sakinləri olan azərbaycanlılar bütünlüklə öz doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalıblar. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılmasını "dəhşətli deportasiyalar" kimi səciyyələndirib. Soydaşlarımızın tarixi yurd yerlərindən qovulması bir neçə mərhələdə reallaşdırılıb

1948-1953-cü illərdə baş verənlər xalqımızın XX yüzillikdə üzləşdiyi sayca üçüncü deportasiya idi. Bu deportasiya İkinci Dünya müharibəsinin sonlarından etibarən formalaşan reallıqlar fonunda baş tutub. Həmin dövrdə fürsətcil ermənilər, o cümlədən də erməni kilsəsi keçmiş ittifaq rəhbərliyinin, necə deyərlər, saqqızını oğurlayıblar. Belə ki, onlar hakim elitanın indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı növbəti deportasiyanın həyata keçirlməsi barədə planın reallaşdırlmasına razılıq verməsinə nail olublar. Deportasiya planı Eçmiədzin kilsəsinin arxiyepiskopu G.Çörəkçyanın 1945-ci il aprelin 19-da Moskvada İ.Stalinlə görüşündən sonra xüsusilə aktiv fazaya daxil olub və hazırlıqlara başlanıb. 1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan KP MK-larının birinci katiblərinin adından İ. Stalinə məktub göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu. Əlbəttə, bu məktub Azərbaycan tərəfindən könüllülük əsasında deyil, bilavasitə mərkəzi hakimiyyətin diktəsi ilə imzalanmışdı. Həmin məktub əsas götürülməklə 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Qərarın 1-ci bəndində 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər. 10 mart 1948-ci il tarixində SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" ikinci qərar qəbul edib. 14 maddədən ibarət olan bu qərarda köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan Nazirlər Sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulub.

## Arxivlərdə qalan sənədlər dəhşət saçır

Soydaşlarımızın doğma yurd yerlərindən çıxarılması prosesinə vaxt itirilmədən, dərhal başlanıldı. "Könüllü " köçürmə əslində məcburi səciyyə daşıyırdı. Ailələr alçaldıcı bir tərzdə alın təri ilə tikdikləri evlərindən zorla çıxarılırdılar, etiraz edənlərə təzyiqlər göstərilir, insanlara hətta ev əşyalarını götürməyə belə imkan verilmirdi.

Eyni zamanda, soydaşlarımızı yeni ünvanda da məşəqqətlər gözləyirdi. Arxivlərdə qalan sənədlər dəhşət saçır. 1948-1950-ci illərdə Ermənistandan köçürülmüş 8110 ailədən yalnız 3232-si yaşayış evləri ilə təmin olunmuşdu. 1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək qərara alınsa da, cəmi 470 ev tikilmişdi. Yalnız 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olunmuşdu. 1951-ci ildə köçkünlər üçün 5000 yaşayış evinin tikintisi planlaşdırılsa da, cəmisi 3074 ev tikilib istifadəyə verilmişdi. 1952-ci ildə Ermənistan SSR-dən Kür-Araz ovalığına 600 təsərrüfatın köçürülməsi planlaşdırılır və plan artıqlaması ilə (124,6 faiz) yerinə yetirilir.

Deportasiyanın son dərəcə ağır şərtlər əsasında həyata keçirildiyini Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin SSRİ Nazirlər Soveti sədrinin müavini V.Malenkova ünvanlandığı 27 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli yuxarıda sadalanan qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında hesabat xarakterli məktubundan da görmək mümkündür. Həmin məktublarda Kür-Araz ovalığına köçürülən əhali üçün bütün zəruri şəraitin yaradılmadığı - yaşayış üçün mənzillərin olmaması, torpağın yararlı hala salınmaması, su təchizatının həll edilməməsi və digər nöqsanlar vurğulanırdı. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR-dən azərbaycanlıların köçürülmə planında dəyişiklik edilərək bu rəqəmin 1949-cu ildə 15000-dən artıq nəzərdə tutulmaması, Ermənistanın dağlıq rayonlarından köçürülənlərin Azərbaycanın dağlıq rayonlarında yerləşdirilməsinə icazə verilməsi SSRİ Nazirlər Sovetindən xahiş edilirdi.

Lakin amansız deportasiya planında dəyişiklik edilmədi. SSRİ Nazirlər Soveti dəfələrlə edilən bu cür müraciətlərə bir qayda olaraq cavab verirdi ki, təsdiq edilmiş köçürmə qrafikindən kənara çıxmaq olmaz.





## Tarixi-mədəni abidələr də erməni vandalizminə məruz qalıb

1948-1953-cü illərdə indiki Ermənistan ərazisindən azərbaycanlıların zorla çıxarılması İrəvan da daxil olmaqla 200-dən artıq yaşayış məntəqəsini əhatə edib. Məcburi qaydada köçürülənlərin ümumi sayı isə təqribən 100 min nəfər olub.

Ən qəddar formalarda həyata keçirilən bu və digər deportasiyalar nəticəsində yalnız insanlar faciələrlə üzləşməmişlər. Həmçinin tarixi abidələrimiz, mədəni-dini irs nümunələrimiz də erməni vandalizminə məruz qalıb. Ermənilər tarixi ərazilərimizdə azərbaycanlı izlərini itirməkdən ötrü ən ağlagəlməz vasitələrə əl atıblar. Hətta qəbristanlıqlar, məscidlər belə dağıdılıb. O cümlədən UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurulub.

Əgər XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində 310 məscid qeydiyyatdan keçmişdisə, indi müasir Ermənistan ərazisində yalnız bir məscid qalıb - Göy məscid. Lakin bu abidəyə münasibətdə də erməni xisləti ortadadır. Belə ki, Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

O cümlədən İrəvanda və digər ünvanlarda Azərbaycan dillidə olan təhsil müəssisələri, teatlar bağlanıb, 60-dan artıq yaşayış məntəqəsində toponimər eybəcər erməni adları ilə əvəzlənib.

## Yeni strateji mərhələnin əsas ümummilli ideyalarından biri

İkinci Qarabağ müharibəsinədək müstəqil Azərbaycanın əsas ümummilli ideyası ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi idi. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bu məsələ daim ölkəmizin gündəliyinin mərkəzində saxlanıldı və milli güc bu istiqamətdə səfərbər edildi. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan şanlı qələbələr sayəsində biz əsas ümummilli ideyamızın gerçəkləşməsinə nail olduq.

Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazanılan qələbələrin əhəmiyyəti misilsizdir. Biz dünya erməniliyinə , Azərbaycanofob güclərə qalib gəlmişik. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, biz uğurlarımızı, tarixi zəfərlərimizi uzun müddət istismar edə bilmərik. Yeni strateji mərhələdə qarşımızda digər mühüm prioritetlər dayanır. Hazırda bizim əsas ümummilli ideyalarımızdan biri zamanında indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanıların tarixi yurd yerlərinə qayıdışının təmin edilməsi ilə bağlıdır. Azərbaycan dövləti və cəmiyyəti bu məsələdə israrlı yanaşma sərgiləyir.

Məğlub Ermənistan Qərbi Azərbaycandan olan insanların geri qayıdış hüququnu tanımaq istəmir. Rəsmi İrəvan Azərbaycanın bu məsələni gündəmə gətirməsini yanlış olaraq Ermənistanın ərazi bütövlüyünə təhdid anlamında təqdim etməyə çalışır. Bu, qarşı tərəfin əl atdığı növbəti manipulyasiyadır. Ölkəmizin heç bir qonşu dövlətin, o cümlədən də Ermənistanın ərazi bütövlüyünü pozmaq kimi bir niyyəti yoxdur. Qərbi Azərbaycandan olan insanların doğma yurd yerlərinə qayıtmaları məsələsinə gəldikdə isə bu, beynəlxalq hüquqla təsbit edilən insan haqları məsələsidir. Ermənistanın özünün də qoşulduğu bir sıra beynəlxalq konvensiyalar insanların qayıdış hüquqlarını tanıyır. Bu sırada n Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı, Pinheiro Prinsiplərini və beynəlxalq adət hüququnu qeyd etmək mümkündür.

Biz tarixi ərazilərimizə dinc yolla qayıtmaq istəyirik. Prezident İlham Əliyevin təbirincə desək, soydaşlarımız Qərbi Azərbaycana tanklarla yox, avtomobillərlə qayıdacaqlar. Qərbi Azərbaycan İcmasının (QAİ) bu istiqamətdə fəaliyyəti təqdirəlayiqdir. Qurumun fəallığı sayəsində soydaşlarımızın tarixi yurd yerlərinə qayıdış məsələsini beynəlxalq müstəviyə çıxarmaq mümkün olub. Sevindirici haldır ki, qurumun hazırladığı ayrı-ayrı sənədlər BMT səviyyəsində yayılıb.

*Mübariz ABDULLAYEV*

# Dövlətin növbəti sosial qayğısı

## Şəhid ailələri və müharibə əlilləri əmlakın qeydiyyatı ilə bağlı rüsumlardan azad ediləcək

Milli Məclis "Dövlət rüsumu haqqında" Qanuna təklif edilən dəyişiklikləri birinci oxunuşda qəbul edib. Dəyişikliklərə əsasən, müharibə əlilləri və şəhid ailələri əmlaka mülkiyyətin qeydiyyatı ilə bağlı sənədlərə görə tələb olunan rüsumlardan azad ediləcək. Belə ki, həmin sosial kateqoriyaya aid insanlar "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 6-cı və "Dövlət rüsumu haqqında" Qanunun 26-cı maddələrində daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə tutulan dövlət rüsumunun bütün dərəcələrini ödəməkdən azad olunacaq. Həmin rüsum dərəcələrinə daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması ilə bağlı reyestrdən çıxarışın (şəhadətnamə), texniki sənədlərin (pasport və plan ölçü) verilməsi, torpaq sahələri üzərində hüquqların qeydiyyatı üçün mərzçəkmə işlərinin görülməsi, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışın verilməsi, ipotekanın dövlət qeydiyyatına alınması və daşınmaz əmlaka dair digər hüquqi hərəkətlər daxildir.

Təklif olunan dəyişiklik sosial cəhətdən həssas əhali kateqoriyasının - müharibə ilə əlaqədar, 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar (o cümlədən Çernobıl AES-də hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar) əlilliyi müəyyən edilmiş şəxslərin, habelə şəhid ailəsi statusu almış şəxslərin həmin xidmətlərə və hüquqi hərəkətlərə görə dövlət rüsumundan azad olunmasını nəzərdə tutur.



Mövcud qərar ölkəmizdə şəhid ailələri və müharibə əlillərinə dövlətin sosial diqqətinin və qayğısının nümunəsi olmaqla, bu siyasətin ardıcıl xarakter daşıdığını təsdiqləyir. Vətən Müharibəsindən sonra dövlətimizin qarşısında duran ən mühüm sosial məsələlərdən biri şəhid ailələrinin və sağlamlığını itirmiş qəhrəman döyüşçülərimizin qayğılarının diqqət mərkəzində saxlanılması, onların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu siyasətə uyğun olaraq, post-nünaqişə dövründə adıçəkilən sosial qruplara davamlı olaraq müxtəlif sosial güzəştlər edilir, müvafiq olaraq qanunvericilikdə dəyişikliklər edilməklə onların sosial müdafiəsinə yönəlmiş tədbirlərin əhatə dairəsi genişləndirilir.

### Vergi və sosial xarakterli güzəştlər

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, həmin kateqoriyaya aid şəxslərin maliyyə-vergi yükü azaldılıb. Vətən müharibəsində şəhid olmuş şəxslərin ailə üzvləri və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində sağlamlığını itirmiş və əlilliyi müəyyən edilmiş hərbi qulluqçular üçün yeni vergi güzəştləri müəyyənləşdirilib. Eyni zamanda, Vətən müharibəsi iştirakçılarının da banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir gəlir vergisindən azad edilib. Şəhid olmuş şəxslərin ailə üzvlərinə və qazilərə verilən maddi yardımın 20 min manatadək olan hissəsi gəlir vergisindən azad edilib. Təhsil və ya müalicə haqları üzrə də vergi azadolmaları tətbiq olunub. Habelə gəlir vergisi üzrə digər dəyişiklik ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10 min manatadək olan hissəsinin, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 50 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi təmin olunub.

Həmçinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və qanunlarda, Əmək və Vergi Məcəllələrinə dəyişikliklər edilməsi nəticəsində sosial güzəştlər tətbiq olulub. Belə ki, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri də şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının və ərlərinin və övladlarının vergi tutulmalı olan aylıq gəlirləri, əməkhaqqı gəlirləri ilə bağlı 800 manat məbləğində vergi güzəştinin verilməsidir.

Vergi Məcəlləsinin 102.2.7-ci maddəsinə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirləri 400 manat məbləğində azaldılıb. Eyni zamanda, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin ödəməli olduqları əmlak vergisininin məbləği 30 manata qədər (evlərin icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla), torpaqlara görə torpaq vergisinin məbləği isə 10 manata qədər azaldılıb.

### Mənzil-məişət şəraitinin yaxşılaşdırılması

Şəhid və şəhid ailəsi statusu almış şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın elektron informasiya sistemində şəhid və şəhid ailəsi statusu almış şəxslərin elektron reyestiri yaradılıb ki, bu da həmin şəxslər barədə vahid informasiya bazasının təmin edilməsinə və daha çevik və operativ sosial xidmətlər göstərməyə imkan verməkdədir.

2024-cü ildə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanuna dəyişikliklər nəticəsində şəhid ailələri üçün güzəşt hüququ qüvvəyə minib və şəhidin mənzil hüququna malik ailə üzvü dünyasını dəyişərsə şəhid ailəsi statusu olmayan ailə üzvlərinin də mənzil növbəsinə yazılması təmin olunub. Qanuna edilmiş dəyişikliklər şəhid ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi və mənzil təminatlarının yaxşılaşdırılması baxımdan mühüm əhəmiyyət kəsb etməklə, mənzil təminatı üzrə tədbirləri genişləndirib.

Beləliklə, çoxşaxəli sosial müdafiə tədbirləri nəticəsində qayğı ilə əhatə olunmuş şəhid ailələrinin və müharibə əlillərinin davamlı olaraq bütün problemləri və qayğıları dövlətin xüsusi nəzarətində saxlanılmaqla ardıcıl qaydada öz həllini tapmaqdadır.

***E.CƏFƏRLİ***

# Həmkarlar təşkilatlarının işində yeni mərhələ...

## AHİK-in VIII Qurultayında gələcək fəaliyyət istiqamətləri müəyyən edilib

***Nardar BAYRAMLI***

Azərbaycanda həmkarlar ittifaqlarının tarixi XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində neft sənayesinin çiçəklənməsi ilə milli sahibkarların yetişdiyi, Bakının böyük sənaye mərkəzinə çevrildiyi və fəhlə hərəkatının genişləndiyi dövrə gedib çıxır. 1904-cü il dekabrın 30-da "Elektrosila" zavodunda neft sənayeçiləri ilə fəhlələr arasında ilk kollektiv müqavilə imzalanıb. 1905-ci il oktyabrın 17-də isə konka (at dəmir yolu) işçiləri həmkarlar ittifaqı təşkilatı yaratdılar. Artıq 1906-cı ilin sonunda Bakıda mövcud olan 18-20 həmkarlar ittifaqının üzvlərinin sayı 12 min nəfəri ötmüşdü. Qafqazdakı həmkarlar ittifaqının 75 faizi Bakı şəhərində cəmlənmişdi.








Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə ölkə həyatının bütün sahələrində olduğu kimi, həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətində də xeyli dəyişiklik baş verdi. 1993-cü il fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Şurası özünü buraxaraq səlahiyyətlərini yeni təsis olunan konfederativ tipli Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) verdi. Bu təşkilatın yaranması ilə həmkarlar ittifaqlarının fəaliyyətində müsbət dəyişikliklər başlandı.

AHİK-in müstəqil qurum kimi formalaşması isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında 1994-cü ilin fevralında postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul edilməsi ilə həmkarlar ittifaqlarının cəmiyyətdəki yeri və statusu müəyyən olundu. Ümummilli Liderin inkişaf strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin həmkarlar ittifaqlarının sosial-iqtisadi məsələlərlə bağlı mövqeyini dəstəkləməsi və bu sahədə mühüm qərarlar qəbul etməsi qurumun həyatında xüsusi rol oynayıb.

Bütövlükdə, AHİK-in əsas məqsədi işçilərin hüquq və mənafelərinin müdafiəsi, sosial ədalətin təşviqi, eləcə də əməyin mühafizəsinin təmin edilməsi istiqamətində davamlı fəaliyyət göstərməkdir.

Yeri gəlmişkən, dekabrın 16-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayı keçirilib. Tədbirdə qurultay nümayəndələri ilə yanaşı, dövlət və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, beynəlxalq təşkilatların və bir sıra ölkələrin həmkarlar ittifaqının rəhbərləri də iştirak ediblər. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlət başçısı İlham Əliyevin qurultay iştirakçılarına müraciətini səsləndirib. Prezidentin müraciətində vurğulandığı kimi, ölkəmizdə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılır. Müasir dövrün çağırışlarına çevik uyğunlaşmaq, həmkarlar ittifaqları üzvləri ilə sıx əlaqələr qurmaq, xidmətləri rəqəmsallaşdırmaq, müvafiq sahələrdə süni intellektin tətbiqi imkanlarını genişləndirmək, xidmət keyfiyyətini və məmnunluq səviyyəsini yüksəltmək xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq əmək standartlarına uyğun fəaliyyət, dünya həmkarlar hərəkatı ilə əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi həmkarlar ittifaqlarının nüfuzunun daha da artırılmasına xidmət edir. Güclü və sağlam vətəndaş cəmiyyətinin inkişafında, həmrəyliyin möhkəmlənməsində həmkarlar ittifaqları mühüm işlər görür.

Qeyd edək ki, qurultayın gündəliyinə Konfederasiyanın 2018-2025-ci illər üzrə fəaliyyəti haqqında hesabat, Təftiş komissiyasının hesabatı, yeni Nizamnamə layihəsinin və qarşıdakı dövr üçün əsas fəaliyyət istiqamətlərinin müzakirəsi daxil edilib. Konfederasiya sədri Sahib Məmmədov hesabat məruzəsi ilə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin həmkarlar ittifaqlarının inkişafındakı rolunu və 1994-cü ildə Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş "Həmkarlar ittifaqları haqqında" Qanunun əhəmiyyətini vurğulayıb, Prezident İlham Əliyevin həmkarlar ittifaqlarına verdiyi davamlı dəstəyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan və həmkarlar ittifaqı üzvlərini də əhatə edən humanitar və sosial layihələrin ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verdiyini qeyd edib.

Hesabat məruzəsində Konfederasiyanın əmək hüquqlarının müdafiəsi, layiqli əmək şəraitinin yaradılması, əməyin təhlükəsizliyi, Baş Kollektiv Sazişdən irəli gələn öhdəliklərin icrası, gender, gənclər, idman və təhsil sahəsində görülən işlər barədə geniş məlumat verilib. Bununla yanaşı, təkmilləşdirilmə tədbirləri və struktur islahatlarının həyata keçirildiyi, "Kurort" Turizm İnformasiya Mərkəzi, Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi, "Həmkarların Sağlam Gələcəyi Naminə" İctimai Birlik və "Çağrı Mərkəzi" kimi yeni qurumların yaradıldığı, həmçinin "Buzovna", "Bilgəh", "Abşeron", "Kurort Naftalan" və "Günəşli" sağlamlıq mərkəzlərində şəraitin yaxşılaşdırıldığı diqqətə çatdırılıb.

Konfederasiya sədri 2025-2027-ci illər üzrə AHİK-in İnkişaf Strategiyasının icrasının gedişi, rəqəmsallaşma prosesi, şəffaflıq, əlçatanlıq və operativliyin təmin olunması məqsədilə yollayışların verilməsinin elektronlaşdırılması, "AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç", bu gün start verilən "AHİK Plus" və digər sosial layihələr barədə ətraflı məlumat verib. Bildirib ki, əmək hüquqlarının müdafiəsi ilə yanaşı, yaşıl iqtisadiyyata keçid, süni intellekt dövründə iş yerlərinin qorunması, layiqli iş yerinin təmin edilməsi, sosial tərəfdaşlığın gücləndirilməsi AHİK-in əsas hədəfləri sırasındadır.

Tədbirdə çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Baş Kollektiv Sazişə əsaslanan sosial tərəfdaşlığın inkişafı nəticəsində əldə olunan uğurlardan bəhs edib, ölkəmizdə həyata keçirilən davamlı sosial-iqtisadi islahatların həmkarlar ittifaqlarının da səmərəli fəaliyyətinə və üzvlərinin rifahının yüksəldilməsinə əlverişli şərait yaratdığını diqqətə çatdırıb.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışıb, qanunvericiliyin beynəlxalq əmək standartlarına uyğunlaşdırıldığını vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək işçi hüquqlarının qorunmasında, Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın işində AHİK-in rolundan danışıb, qurumun təşəbbüslərinin, eləcə də kollektiv saziş mexanizmlərinin təkmilləşdirilməsi və sosial tərəfdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətinin ölkəmizdə həyata keçirilən sosial siyasəti dəstəklədiyini bildiriblər.

Tədbirdə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luk Trianqlın və Beynəlxalq Əmək Təşkilatı İşçilərin Fəaliyyəti Bürosunun direktoru Oliver Röpkenin qurultaya videomüraciəti izlənilib. Həmçinin, qurultayda çıxış edən Pan-Avropa Regional Şurasının sədri İqor Zubku, Türkiyə İşçi Həmkarlar İttifaqları Konfederasiyasının sədri Ərgün Atalay, Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Qudratulla Rafiqov, Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Satıbaldı Dauletalin, Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Muradil Cumadilde, Türkiyə Kamu-Sen Həmkarlar İttifaqları Konfederasiyasının sədri Öndər Kahveçi, Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyinin sədri Gezim Kalaya və Türkiyə Metal İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının sədri Uysal Altundağ AHİK-in beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfələri və Azərbaycanın sosial dialoq modelini müsbət qiymətləndiriblər.

Sonra Təftiş komissiyasının hesabatı dinlənilib. Ardınca Konfederasiyanın 2018-2025-ci illər üzrə fəaliyyəti barədə və Təftiş komissiyasının hesabatları ilə bağlı müzakirələr aparılıb, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova, Aqrar, Ekologiya və Su Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Məmməd Həsənov çıxış ediblər.

Müzakirələrdən sonra AHİK-in qurultaylararası dövr üzrə və Təftiş komissiyasının hesabatları, eləcə də yeni Nizamnaməsi təsdiq olunub, gələcək fəaliyyət istiqamətləri müəyyən edilib.

# Media Savadlılığı Həftəsi davam edir...

## Dezinformasiya ilə mübarizədə dinləmələr keçirilib

Azərbaycanda dekabrın 15-dən etibarən Media Savadlılığı Həftəsi başlayıb. Həftə dekabrın 22-dək Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçiriləcək.

Media Savadlılığı Həftəsinin keçirilməsində məqsəd cəmiyyətdə media savadlılığının artırılması, dezinformasiya ilə mübarizədə maarifləndirmənin və həmrəyliyin gücləndirilməsidir. Eyni zamanda, həssas istifadəçi qrupu hesab edilən və bir çox hallarda zərərli məlumatların təsirinə məruz qalma ehtimalı yüksək olan yeniyetmə və gənclərin media savadlılığı mövzusunda bilik və bacarıqlarının təkmilləşdirilməsi, müxtəlif tərəflər arasında koordinasiya və əməkdaşlığın genişləndirilməsi əsas məqsədlərdən biridir.

Xatırladaq ki, 2022-ci ildən etibarən hər ilin dekabr ayında təşkil edilən, müxtəlif hədəf qruplarına yönəlmiş təlim və inkişaf proqramlarının, maarifləndirmə və təbliğat tədbirlərinin, müxtəlif kampaniyaların keçirildiyi Həftə çərçivəsində bu il də geniş auditoriyanın əhatə olunması, məlumatların daha çox şəxsə çatdırılması məqsədilə silsilə tədbirlərin görülməsi planlaşdırılır.

### 2500-ə yaxın şagird üçün açıq dərslər keçilib

Medianın İnkişafı Agentliyi və Elm və Təhsil Nazirliyinin birgə tərəfdaşlığı ilə “Media Savadlılığı” Həftəsi çərçivəsində Bakı şəhəri üzrə 12 ümumi təhsil müəssisəsində 2500-ə yaxın şagird üçün media savadlılığı mövzusunda məlumatlandırma sessiyaları və açıq dərslər təşkil edilib.

Sözügedən məlumatlandırma sessiyaları və açıq dərslərdə Agentliyin təlimlərində iştirak etmiş 2 pilot və 10 məktəbdən ümumilikdə 20 müəllim media savadlılığı ilə bağlı təqdimat edib.

### Gənclərin dezinformasiya qarşısında mövqe sərgiləməsi

Tədbirlərin açılış mərasimində Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri və strateji planlaşdırma şöbəsinin müdiri Mehriban Məmmədova çıxış edərək bildirib ki, müasir informasiya mühitində məlumat bolluğu fonunda xüsusilə şagirdlərin düzgün məlumatı seçmək, təhlil etmək və tənqidi yanaşmaq bacarıqlarının formalaşdırılması mühüm əhəmiyyət daşıyır. O, qeyd edib ki, media savadlılığının erkən yaşlardan aşılanması gənc nəslin dezinformasiya, yanlış məlumatlar və manipulyativ təsirlər qarşısında daha dayanıqlı mövqe sərgiləməsinə mühüm töhfə verir.

Keçirilən sessiya və dərslər zamanı şagirdlərə media savadlılığının əsas prinsipləri, informasiya mənbələrinin düzgün müəyyənləşdirilməsi, xəbərlərin sorğulayıcı qiymətləndirilməsi, faktların yoxlanılması və vizual materialların etibarlılığının araşdırılması ilə bağlı praktik biliklər təqdim olunub. Qeyd edək ki, təşkil olunan məlumatlandırma sessiyaları və açıq dərslərin məqsədi şagirdlərin media savadlılığı üzrə bilik və bacarıqlarının artırılması, doğru informasiya əldə etmək vərdişlərinin formalaşdırılması, informasiya məkanında təqdim olunan məzmunu müstəqil şəkildə təhlil edə bilmələrinə töhfə verməkdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**






### Təlimlər Naxçıvanda davam edib

Həftə çərçivəsində Naxçıvan Muxtar Respublikasında “Media savadlılığı” mövzusunda təlimlər təşkil olunub.

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova bildirib ki, müasir dövrdə informasiyanın etibarlılığı məsələsi xüsusi aktuallıq kəsb edir. Onun sözlərinə görə, media savadlılığının təşviqi etibarlı informasiya məkanının formalaşdırılması baxımından vacib istiqamətlərdəndir.

“Regional İnkişaf” İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı bildirib ki, media savadlılığı gənclərin informasiya axınında düzgün qərarvermə bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. O, qeyd edib ki, bu kimi təşəbbüslər onların rəqəmsal mühitdə daha məsuliyyətli mövqe tutmasına şərait yaradır.

Azərbaycan Respublikasının Gənclər Fondunun Naxçıvan filialının əməkdaşı Fatimə Yusifli isə çıxışında gənclərin media savadlılığı sahəsində biliklərinin artırılmasının onların informasiya mühitində daha fəal və məqsədyönlü iştirakına, eləcə də dezinformasiyaya qarşı dayanıqlılığın gücləndirilməsinə töhfə verdiyini vurğulayıb.

“Media Savadlılığı” Həftəsi çərçivəsində Naxçıvan Dövlət Universitetinin tələbələri üçün də təlim təşkil olunub. Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova tərəfindən mövzuya dair təqdimat keçirilib, iştirakçıların sualları cavablandırılıb və praktik nümunələr əsasında müzakirələr aparılıb.

Təlim zamanı Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin aparıcı mütəxəssisi Məmmədbağır Dünyamalıyev media savadlılığı, informasiya mənbələrinin etibarlılığı və rəqəmsal platformalarda yayılan məzmunun təhlili ilə bağlı fikirlərini bölüşüb.

Qeyd edək ki, keçirilən təlimlər gənclərin informasiya mühitində daha şüurlu və tənqidi yanaşma bacarıqlarının formalaşdırılmasına, eləcə də etibarlı informasiya məkanının təşviqinə töhfə vermək məqsədi daşıyır.

*Yeganə*

# Birlikdə inkişaf və əməkdaşlıq

## AİB Cənubi Qafqaz-Mərkəzi Asiya regionunda sərmayə platforması qurur

Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda icra olunacaq iki texniki yardım layihəsini təsdiqləyib. Ümumi məbləği 2 milyon dollar təşkil edən regional layihələrin AİB-in donorluq etdiyi Xüsusi Texniki Yardım Fondu vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulur. Maliyyə tutumu 1,5 milyon dollar olan birinci regional layihə “Birlikdə ACT: Mərkəzi və Qərbi Asiyada sürətlənirik, inkişaf və əməkdaşlıq edirik” adlanır və Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir. Bu, Cənubi Qafqaz-Mərkəzi Asiya coğrafiyasında birgə kommunikativ əməkdaşlığı dəstəkləmək məqsədi daşıyır. Layihə dəyəri 500 min dollar olan “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin təşviqi: 4-cü alt layihə” isə 13 ölkəni əhatə edir. Həmin ölkələrin sırasına ilk layihədəki dövlətlərdən başqa, Sakit okean bölgəsinin üzvləri də daxildir.

### 17 Dayanıqlı İnkişaf Məqsədinə yardım

AİB-in açıqlamasına görə, birinci layihə satınalmalar sahəsində potensialın gücləndirilməsinə, layihələrin hazırlıq səviyyəsinin artırılmasına, həmçinin Mərkəzi və Qərbi Asiya Departamentinin inkişaf etməkdə olan üzv ölkələrində portfel və layihələrin hazırlanmasına yönəlib. Texniki yardımın satınalma, müqavilə və layihə idarəetməsi sahəsində potensialın gücləndirilməsi üçün beynəlxalq və milli məsləhətçilərin cəlb edilməsi hesabına portfel keyfiyyətini yaxşılaşdıracağı və reallaşdırmada baş verə biləcək gecikmələri azaldacağı gözlənilir. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə sonradan tətbiq edilməsi üçün analitik tədqiqatlar aparılacaq və portfel idarəetməsi ilə bağlı ən yaxşı təcrübələr sistemləşdiriləcək. Texniki yardımın əsas xüsusiyyəti bütün region üzrə potensialın və resursların inkişafı mərkəzlərinin institusional gücləndirilməsidir. Bu da ADB-nin əməliyyat prosedurlarının, xüsusilə layihələrin hazırlanması və həyata keçirilməsinin daha dərindən başa düşülməsinə və praktiki tətbiqinə yönəlmiş davamlı təlim proqramları və seminarlarla tamamlanacaq.

Texniki yardım, həmçinin Mərkəzi və Qərbi Asiyada institusional potensialın gücləndirilməsinə kömək edəcək.

Ümumilikdə, bu layihələr yeni əməkdaşlıq platformasını yaratmaq üçün texniki dəstəyi nəzərdə tutur. Əməkdaşlıq prioritetləri isə həddindən artıq geniş olduğundan icra olunacaq layihələrin maliyyə-investisiya dəyəri 100 milyon dollarla vəsait tələb edəcək. Belə ki, Cənubi Qafqaz, Asiya və Sakit okean regionunda 2030-cu ilə qədər 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün böyük hədəf prinsipləri nəzərdə tutulub ki, burada sosial xidmətlər və dayanıqlı məşğulluq, müasir infrastrukturlar, keyfiyyətli səhiyyə, təhsil xidmətlərinin təşkili, iqtisadi inkişaf təşviqləri, iqlim dəyişikliyinə qarşı mübarizə, istehlak və istehsalın təşviqi, “yaşıl inkişaf” hədəfləri, nəqliyyat və logistika sistemlərinin modernləşdirilməsi, institisional tədbirlər və s. mühüm prinsiplər yer alır. Həmin hədəflərə nail olmaq üçün layihənin əhatə olunduğu ölkələrin hər birində davamlı proqram və layihələrin maliyyələşdirilməsinə irihəcmli maliyyə tələb olunur. Ona görə də, Asiya Bankının dəstəklədiyi layihələr qeyd edilən strateji prioritetlərin hazırlanmasını nəzərdə tutur, Dayanıqlı İnkişaf Məqsədi üzrə hədəflərin maliyyələşdirilməsi üçün növbəti mərhələlərdə böyük investisiya sazişlərinin imzalanması planlaşdırılır.

### 26 illik etimada söykənən əməkdaşlıq

Kapital portfelinin böyük bir hissəsi Çinin maliyyəsi ilə formalaşan Asiya Bankı ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələri maliyyələşdirilməsini təmin edib. AİB 26 ilə yaxındır ki, ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən yaxın tərəfdaş kimi təmsil olunmaqdadır. AİB Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin maliyyələşdirilməsinə 5,6 milyard dollar həcmində maliyyələ ayrılmasını təmin edib. Onun 4,4 milyard dolları dövlət sektoruna, 1,2 milyard dolları isə özəl sektora yönəldilib.

Həmin layihələr sırasında dəmir yolu infrastrukturunun müasirləşdirilməsi də xüsusi yer tutur. AİB Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün ölkəmizə 150 milyon dollar kredit ayırıb, layihənin başa çatdırılması üçün əlavə tələb olunan 131,5 milyon dollar məbləğində maliyyələşməni təmin edib. Bununla yanaşı, dəmir yolu sektorunun maliyyə davamlılığının artırılması üzrə həyata keçirilən islahatların dəstəklənməsi məqsədilə 2017-ci ildə bank tərəfindən “Dəmir yolu sektorunun inkişafı proqramı” çərçivəsində 250 milyon dollar məbləğində kredit vəsaitləri ayrılıb.

AİB Azərbaycanın regional enerji layihələrinin maliyyələşdirilməsində də donor kimi fəal rol oynayıb, Cənub Qaz Dəhlizi layihəsinə dəstək verən ilk beynəlxalq maliyyə qurumu olub. Avropa İttifaqının enerji təminatında xüsusi rol oynayan bu layihələri də maliyyələşdirməyi öz öhdəsinə götürərək “Şahdəniz” yatağının maliyyələşdirilməsinə 524,5 milyon dollar məbləğində tam şəkildə zəmanət verib.

### Yeni Tərəfdaşlıq Strategiyasına başlanılır

Asiya Bankı 17 Dayanıqlı İnkişaf Məqsədi hədəfləri, eyni zamanda, Azərbaycanla birbaşa Yeni Tərəfdaşlıq Strategiyası çərçivəsində Azərbaycanda dayanıqlı maliyyə dəstəkçisi olacağını bəyan edib. Bank 2029-cu ilədək Azərbaycana 2,5 milyard dollaradək investisiya ayıracaq. Orta Dəhlizin maliyyə donoru kimi də aktiv fəaliyyət göstərir. Bank həmin nəqliyyat ekosisteminin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridorunun (Digital Trade Corridor) yaradılmasını maliyyələşdirib ki, bu da “Avrasiya Nəqliyyat Marşrutu”nun rəqəmsallaşmasında və “Maneəsiz Rəqəmsal Dəhliz” sisteminin qurulmasında mühüm rol oynamaqdadır. Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq “Bir kəmər, bir yol”un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhliz üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi də prioritet təşkil edir.




Yeni strateji konsepsiya Bakı metrosunun genişləndirilməsi, Bakı şəhəri və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun, içməli su təchizatının, su itkilərinin azaldılması və yağış sularının idarə edilməsi sahələrində həyata keçiriləcək layihələrdə, eləcə də dəmir yolu infrastrukturunun modernləşdirilməsi və digər infrastruktur layihələrini əhatə edir. Əməkdaşlığın digər istiqaməti bərpaolunan enerji və “yaşıl nəqliyyat” sahələrini əhatə edəcək. Bu istiqamətdə, AİB tərəfindən növbəti illər ərzində regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə “Şimal-Cənub” və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında hökumətə dəstək verilməsi nəzərdə tutulur. M.Kanda vurğulayıb ki, bank Azərbaycanın Mərkəzi Asiya ilə Avropanı birləşdirən regional haba çevrilməsinə dəstək verməyə sadiqdir və nəqliyyat sahəsində rəqəmsallaşdırma və digər texnoloji innovasiyaların inkişafına əhəmiyyətli investisiyalar qoyulacaq.

*E. CƏFƏRLİ*

# 20-ci sanksiya paketinə doğru...

Rusiya-Ukrayna münahirbəsində diplomatik təşəbbüslərin artdığı vaxtda cəbhə xəttində döyüşlər də güclənir. Rusiya qoşunları diplomatik masada üstünlüyünü qorumaq üçün daha çox ərazi ələ keçirməyə çalışır. Belə bir şəraitdə Kiyev və müttəfiqləri hucumların miqyasını azaltmaq və Rusiyanı zəifləmək üçün müxtəlif təşəbbüslər göstərir. Belə təşəbbüslərdən biri də Rusiyaya qarşı sanksiyaları daha da genişləndirməkdir.

Yeri gəlmişkən, bugünlərdə Avropa İttifaqı (Aİ) Rusiyanın hibrid fəaliyyətləri, o cümlədən informasiya manipulyasiyaları və müdaxilələri, Aİ-yə üzv dövlətlərə və tərəfdaşlarına qarşı kiber fəaliyyətləri nəzərə alaraq əlavə 12 şəxsə və 2 təşkilata məhdudlaşdırıcı tədbirlər tətbiq edib. Siyahıya Kremlin siyasət və informasiya aparatına yaxın və ya ona bağlı institutlarda, düşüncə mərkəzlərində və universitetlərdə fəaliyyət göstərən tanınmış xarici siyasət analitikləri, həmçinin Ukraynaya müdaxilə, anti-Ukrayna və anti-NATO təbliğatını, eləcə də Rusiyanın təbliğatı və sui-qəsd nəzəriyyələrini yaymaqla məşğul olan şəxslər və təşkilatlar salınıb. Onların arasında keçmiş hərbçilər və polis əməkdaşları da var.

## 700 gəmiyə qarşı sanksiyalar qüvvəyə minib

Bundan əlavə, Avropa İttifaqı Rusiya ilə bağlı sanksiya siyahılarına daha 40 gəmi daxil etmək niyyətindədir. Bunu Aİ-nin ali nümayəndəsi Kaya Kallas bəyan edib. "Biz kölgə donanmasındakı gəmilərlə bağlı qərar qəbul edəcəyik. Söhbət 40 gəmidən və sanksiyalardan yayınmağa kömək edən şəxslərdən gedir", - deyə K.Kallas bildirib.

Ukrayna Prezidenti Volodimir Zelenski isə teleqram kanalında yazıb ki, ümumilikdə Rusiyanın müharibəni maliyyələşdirmək üçün istifadə etdiyi 700 gəmiyə qarşı sanksiyalar qüvvəyə minib: "Rusiya donanmasının sanksiyalara məruz qalan gəmiləri neft və başqa enerji resursları daşıyır və müharibənin uzadılması üçün pul verir. Bu, Rusiyanın kölgə donanmasına qarşı ən böyük sanksiyalar paketidir. Təkcə Rusiya bayrağı yox, digər dövlətlərin bayraqları dalğalanan gəmilər də məhdudiyyətlərə məruz qalıb". Zelenski Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının 656 gəmiyə qarşı sanksiya tətbiqi əks olunan qərarının qüvvəyə minməsi üçün sərəncam da imzalayıb. Sanksiyalar altında olan gəmilər 50-dən çox ölkənin bayraqları ilə hərəkət edib. Daha çox Qambiya, Syerra-Leone, Panama və Kamerunun bayraqları istifadə olunub. Ukrayna Prezidentinin sözlərinə görə, Kiyev bu sanksiyalarla bağlı müttəfiqləri ilə birgə iş görəcək.




## 2027-ci il yanvarın 1-dən...

Ukraynanın tərəfdaşları Rusiyaya qarşı sanksiyaları daha da genişləndirmək üçün əməkdaşlığı davam etdirirlər. Bu yaxınlarda Kiyevdə ABŞ, Böyük Britaniya və Avropa İttifaqı ölkələri də daxil olmaqla 21 dövlətin nümayəndələrinin iştirakı ilə ilk "sanksiyalar" sammitinin keçirilməsi də bunun göstəricisidir. Sammitin nəticəsi olaraq beynəlxalq sanksiya koalisiyasının gücləndirilməsi üzrə əlavə planın hazırlanacağı, həmçinin Aİ-nin 20-ci sanksiya paketinə dair təkliflərin formalaşdırılacağı nəzərdə tutulur.

Xatırladaq ki, Avropa İttifaqına üzv ölkələr Rusiyaya qarşı sonuncu - 19-cu sanksiyalar paketini oktyabr ayında qəbul ediblər. Bu istiqamətdə işlərə hələ iyul ayında - 18-ci sanksiyalar paketi təsdiqləndikdən dərhal sonra başlanmışdı. O zaman Avropa İttifaqı "yarımçıq tədbirlərlə kifayətlənməyəcəyini" bəyan etmişdi. 19-cu sanksiyalar paketinin qəbulu isə asan olmayıb. Çünki Aİ daxilində həmin məhdudlaşdırıcı tədbirlərin qəbul olunmasına bir sıra müqavimətlər var idi. Narazılar hesab edirdilər ki, bu sanksiyalar Aİ ölkələrinə də mənfi təsir göstərə bilər. Buna baxmayaraq, ittifaq daxilində konsesusa gəlmək mümkün olub. Avropa İttifaqının 19-cu sanksiyalar paketi üzv ölkələrə Rusiyadan maye qaz idxalını qadağan edir. Bu sanksiyalar paketi, həmçinin Rusiya diplomatlarının Avropa İttifaqı ölkələri ərazisində hərəkətinə məhdudiyyətlərin tətbiqini də ehtiva edir. Qadağanın mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Qısamüddətli müqavilələr üçün 6 aylıq keçid dövrü müəyyən edilib. Uzunmüddətli müqavilələr üzrə qadağa isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Sanksiya siyahısına "kölgə donanması"nın daha 117 tankeri daxil edilib, bununla da sanksiya altında olan gəmilərin ümumi sayı 558-ə çatır. "Maliyyə" blokuna qarşı məhdudlaşdırıcı tədbirlər aşağıdakıları əhatə edir: Rusiya tərəfindən istifadə olunan təyyarə və gəmilərin üçüncü ölkəyə satıldıqdan sonra ilk 5 il ərzində sığortalanmasının qadağan edilməsi; beş Rusiya bankı ilə əməliyyatlara tam qadağa qoyulması və elektron ödəniş sistemlərinə, xüsusilə "Mir" sisteminə mövcud qadağanın, eləcə də Belarus və Qazaxıstandakı daha dörd banka qarşı sanksiyaların genişləndirilməsi. Bundan başqa, Avropa operatorlarının Rusiyada turizmlə bağlı xidmətlər göstərməsinə qadağa qoyulacaq.

## Aİ Ukraynanın bərpası xərclərini təkbaşına ödəyə biləcəkmi?

Bu arada Avropa İttifaqı Ukraynanın yenidən qurulması xərclərini təkbaşına ödəyə bilməyəcəyi və bu işə özəl sektoru cəlb etməli olacağını bəyan edib. Bunu Aİ-nin genişlənmə üzrə komissarı Marta Kos Avropa İttifaqının xarici işlər nazirlərinin görüşündə çıxış edərkən deyib. "Hazırda Ukrayna üçün maliyyələşdirmə ilə bağlı razılaşma prosesindəyik. Lakin Ukraynanın bərpası özəl vəsaitlər cəlb edilmədən və özəl şirkətlər olmadan mümkün deyil. Özəl şirkətlərin Ukraynaya sərmayə yatırması və yenidənqurma işlərində iştirakı üçün təhlükəsiz investisiya mühiti və hüquqi müəyyənlik lazımdır. Korrupsiyaya qarşı mübarizə tədbirləri məhz bu məqsədlə aparılmalıdır", - deyə Marta Kos Ukraynadakı korrupsiya qalmaqallarını şərh edərkən bildirib.

Qeyd edək ki, dekabrın 18-19-də keçiriləcək sammitdə Avropa İttifaqı liderləri 2026-2027-ci illərdə Rusiya aktivlərinin ekspropriasiyası yolu ilə Ukraynaya təzminat kreditini razılaşdırmaq niyyətindədirlər. Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin dekabrın 3-də elan etdiyi plana əsasən, Brüssel 2026-2027-ci illərdə Ukraynanın cari hərbi xərclərini və ya sülh bağlanacağı təqdirdə ordusunun yenidən qurulmasını Rusiyanın ekspropriasiya edilmiş 210 milyard avroluq aktivləri hesabına ödəmək niyyətindədir.

**N.BAYRAMLI**

# Ukrayna təzminat prosesinə start verir

## Bununla bağlı beynəlxalq Komissiya fəaliyyət göstərəcək

Rusiya-Ukrayna müharibəsinin yekunlaşması istiqamətində gedən danışıqlar prosesi intensivləşdikcə, bölgənin gələcəyi ilə bağlı planlamalar da hazırlanır. Belə ki, Niderlandda Rusiyanın müharibə zamanı Ukraynaya vurduğu ziyanla bağlı iddialara baxılması üçün Beynəlxalq Komissiyanın yaradılması haqqında Konvensiya imzalanıb. 35 dövlətin nümayəndələrinin imzaladığı sənəd Avropa Şurası bazasında komissiyanın yaradılmasını nəzərdə tutur. İmzalanma mərasimində Ukrayna Prezidenti Volodimir Zelenski də iştirak edib.

## 80.000-dən çox iddia ərizəsi...

Tədbirdə Avropa Şurasının baş katibi Alen Berse bildirib ki, beynəlxalq təzminat mexanizminin formalaşdırılması mərhələli şəkildə həyata keçirilir. Birinci mərhələ 2023-cü ildə Ukrayna üçün zərər reyestrinin yaradılması olub. İkinci mərhələ Rusiyanın Ukraynaya vurduğu ziyanın ödənilməsi ilə bağlı tələblərə baxacaq Beynəlxalq İddialar Komissiyasının işi ilə bağlı olacaq. Qeyd olunur ki, zərər reyestri və komissiya dəymiş ziyan haqqında məlumatların toplanması, yoxlanılması və təhlilinə, həmçinin vurulmuş ziyanı kompensasiya etməli olan məsul şəxslərin və dövlətlərin müəyyən olunmasına sistemli yanaşmanı təmin edəcək. Qlobal mexanizmin üçüncü mərhələsi Ukraynanın zərərçəkənlərə ödənişlər etməsinə imkan verəcək kompensasiya fondunun yaradılması olacaq. Hazırda onun maliyyələşdirilməsi məsələsi müzakirə edilir, dondurulmuş Rusiya aktivləri və onlardan əldə edilən gəlirlərin əsas maliyyə mənbəyi olacağı gözlənilir. "The Guardian" qəzetinin məlumatına görə, son iki ildə zərər reyestrinə Ukraynadakı fərdlər, təşkilatlar və dövlət qurumları tərəfindən təqdim edilən 80.000-dən çox iddia ərizəsi daxil olub. Artıq onlarla ölkə komissiyaya dəstək ifadə edib.

## Komissiya Haaqada yerləşəcək

İmzalanma mərasimində çıxış edən Ukrayna Prezidenti Zelenskinin sözlərinə görə, təzminat mexanizminin yaradılması "sülhə gedən real yolun" ilk mərhələsidir. O qeyd edib ki, Rusiyanı razılaşmaya məcbur etmək, insanları öldürməyi dayandırmağa məcbur etmək kifayət deyil: "Biz Rusiyanı dünyada qaydaların olduğunu qəbul etməyə məcbur etməliyik".

Yeni beynəlxalq komissiya Haaqada yerləşəcək. Bu barədə Hollandiyanın xarici işlər naziri David van Vil jurnalistlərə bildirib. "Hesabat olmadan münaqişə tam həll edilə bilməz. Və bu hesabatlılığın bir hissəsi ödənilməli olan kompensasiyanın verilməsidir", - deyə van Vil xatırladıb: "İnanıram ki, bu gün iddia komissiyası yaratmaqla və müvafiq müqaviləni imzalamaqla irəliyə doğru böyük bir addım atırıq."




## 524 milyard dollar (447 milyard avro)...

AŞ-nin Baş katibi Alen Berse hesabatlılıq, kompensasiya və Ukraynanın bərpası ilə bağlı müzakirələrin sülh danışıqlarına daxil edilməsinə çağırış edib. AŞ-nin veb saytında verdiyi açıqlamada Berse təmsil etdiyi təşkilatın və tərəfdaşlarının Rusiyanın tammiqyaslı təcavüzünə qarşı müqavimətində Ukraynanı ilk gündən dəstəklədiyini vurğulayıb. "Birlikdə işləyərək, ədalətli və davamlı sülhə nail olmaq üçün Ukraynanı dəstəkləməyə hazır olmalıyıq. Ukrayna üçün Zərər Reyestri və Beynəlxalq İddialar Komissiyası Rusiyanın müharibədə törətdikləri üçün kompensasiya verməsi ilə məşğul olan yeganə müstəqil beynəlxalq mexanizmlərdir", - deyə o, bildirib.

Qeyd edək ki, Ukrayna üçün Zərər Reyestri 2024-cü ilin aprel ayından fəaliyyət göstərir. Reyestr 17 may 2023-cü ildə Avropa Şurasının himayəsi altında yaradılıb. Reyestrə dəstək kimi prosesə 44 dövlət, eləcə də Avropa İttifaqı da qoşulub. Reyestr Ukraynadakı fərdlər, təşkilatlar və dövlət orqanları tərəfindən təqdim edilən kompensasiya tələblərini toplayır və qeydiyyata alır. O, bədən xəsarəti, işgəncə və cinsi zorakılıq, məcburi deportasiya və əmlak itkisi daxil olmaqla 40-dan çox zərər kateqoriyası üzrə müraciətləri qəbul edir. Dünya Bankı Ukraynanın növbəti onillikdə bərpa xərclərini 524 milyard dollar (447 milyard avro) olaraq qiymətləndirir.

Tədbirdən sonra keçirilən mətbuat konfransı zamanı Aİ-nin Ali Nümayəndəsi Kaya Kallas komissiyanın yaradılmasını dəstəkləmək üçün 1 milyon avro ayırdığını açıqlayıb.

## Rusiya imtina edir...

Qeyd edək ki, 2024-cü ildə Kiyev Rusiyanın Ukraynaya hərbi əməliyyatlardan dəyən ziyanı 1 trilyon dollar məbləğində kompensasiya etməli olduğunu elan etmişdi. Eyni zamanda, Ukrayna rəsmiləri dəfələrlə Rusiya ilə təzminat mexanizmi olmadan heç bir sülh müqaviləsi imzalamayacağını vurğulamışdılar. Rusiya isə Kiyevin bu cür tələblərini ardıcıl olaraq rədd edib. 2025-ci il İstanbul danışıqlarında da Rusiya tərəfinin açıq şəkildə bildirdiyi tələblərdən biri Ukraynanın təzminat tələblərindən imtina etməsi idi.

Qərb ölkələri hazırda Ukraynanın bərpası üçün Rusiya aktivlərinin məcburi şəkildə müsadirə edilməsi üçün hüquqi mexanizmləri araşdırırlar. Rusiya Xarici İşlər Nazirliyi isə xəbərdarlıq edib ki, Rusiya daşınmaz əmlakını və digər aktivlərini ələ keçirmək cəhdləri Rusiyanın "adekvat və effektiv" cavabı ilə nəticələnəcək. Prezident Vladimir Putin Qərb ölkələrinin bu hərəkətlərini oğurluqla müqayisə edib. Rusiya Ukraynadakı hərbi əməliyyatla bağlı Moskvaya qarşı iddialar irəli sürən Avropa ölkələri tərəfindən yaradılan beynəlxalq qurumları da tanımadığını və onları qanunsuz hesab etdiyini bildirib.

***P.S. Rusiyanın işğal nəticəsində Ukraynaya vurduğu ziyanı israrla kompensasiya etmək üçün təzminat tələb edən Qərb Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində talan etməsini, milli sərvətlərini daşımasını, tarixi keçmişinə ziyan vurmasını, ən əsası, torpaqlarımızı minalamasını elə 30 il sükutla qarşılayır....***

*Pərviz Sadayoğlu*

# ABŞ-ın yeni strategiyası: Avropasız dünya nizamı

ABŞ-ın son Milli Təhlükəsizlik Strategiyası sadəcə növbəti bürokratik sənəd deyil. Bu sənəd, əslində, Vaşinqtonun dünyaya ünvanladığı açıq mesajdır: Amerika qlobal liderlik modelini dəyişir və Avropanı bu modelin mərkəzindən çıxarır. Uzun illər "kollektiv Qərb", "transatlantik həmrəylik", "ortaq dəyərlər" kimi anlayışlarla möhkəmləndirilən siyasi konstruksiya bu strategiya ilə faktiki olaraq ləğv edilir.

Söhbət rəsmi adı "United States National Security Strategy" olan sənəddən gedir. ABŞ-da hər administrasiya bu strategiyanı hazırlayaraq Konqresə təqdim edir və ölkənin təhlükəsizlik, xarici siyasət və müttəfiqlərlə münasibətlərinin əsas konturlarını müəyyənləşdirir. Lakin bu dəfəki sənəd əvvəlkilərdən kəskin şəkildə fərqlənir. O, texniki plan yox, ideoloji manifest təsiri bağışlayır və liberal beynəlxalq nizamın sonuna işarə edir.

Sənədin əsas ideoloji müəllifi kimi Michael Anton göstərilir. O, Donald Trampın birinci prezidentlik dövründə də əsas ideoloqlardan biri olub, 2024-cü ilin yayına qədər ABŞ Dövlət Departamentinin Xarici Siyasət Planlaşdırma Departamentinə rəhbərlik edib. Avqust ayında administrasiya ilə fikir ayrılığı səbəbindən vəzifədən getsə də, strategiya məhz onun baxışları əsasında formalaşdırılıb. Bu, vacib detaldır, çünki sənəd trampçı düşüncənin institusional formaya salınmış variantıdır.

Strategiyanın fəlsəfəsi sadə, lakin dağıdıcıdır: prinsiplər dövrü bitib, maraqlar dövrü başlayıb. ABŞ artıq liberal universalizmi, demokratiya ixracını və qlobal qaydaları prioritet hesab etmir. Əsas meyar milli maraqdır. Harada fayda varsa, orada əməkdaşlıq mümkündür; harada risk varsa, oradan geri çəkilmək lazımdır. Bu yanaşma ABŞ-ın Vudro Vilsondan bəri davam edən ideoloji xəttindən imtina deməkdir və daha çox XIX əsrin sonu - XX əsrin əvvəlinin güc siyasətinə qayıdışı xatırladır.

Bu kontekstdə Avropa strategiyanın ən zəif həlqəsi kimi təqdim olunur. Avropa İttifaqı sənəddə effektiv tərəfdaş yox, qərar qəbul edə bilməyən, öz təhlükəsizliyini təmin etməyə qadir olmayan bürokratik struktur kimi təsvir edilir. ABŞ açıq şəkildə bildirir ki, Avropanın müdafiəsini avtomatik şəkildə üzərinə götürmək niyyətində deyil. NATO-nun genişlənməsi faktiki olaraq dondurulur və Avropa ölkələrinə mesaj verilir: ya özünüzü qoruyun, ya da ABŞ-ın Çinlə mübarizəsində alət rolunu qəbul edin. Bu, Avropa üçün tarixi dönüş nöqtəsidir, çünki Avropa uzun illər öz təhlükəsizlik arxitekturasını ABŞ-a həvalə edib, siyasi suverenliyini isə konsensus mexanizmləri ilə zəiflədib. İndi isə Vaşinqton bu yükü daşımaq istəmir. ABŞ-ın yeni strategiyası Avropaya açıq şəkildə bildirir: "Siz artıq prioritet deyilsiniz."

Sənədin ən diqqətçəkən və Avropa üçün ən narahatedici hissəsi Rusiyaya münasibətlə bağlıdır. Rusiya burada nə əsas düşmən, nə də "qlobal şər oxu"nun üzvü kimi təqdim olunur. Əksinə, "strateji sabitlik" anlayışı ön plana çəkilir. ABŞ Rusiya ilə düşmənçilik yox, nəzarətli münasibətlər qurmağın zəruriliyini vurğulayır. Hətta Avropada təhlükəsizliyin təmin olunması üçün Rusiya ilə dialoqun vacibliyinə işarə edilir. Bu isə o deməkdir ki, Ukrayna münaqişəsindən sonrakı mərhələdə əsas sövdələşmələr Avropa paytaxtlarında yox, Vaşinqton və Moskva arasında aparıla bilər. Avropa bu prosesdə subyekt yox, obyekt statusunda qala bilər. ABŞ faktiki olaraq Avropanı Rusiyayla barışdırmaq missiyasını öz üzərinə götürməyə hazır olduğunu göstərir, lakin bu barışığın şərtlərini də özü müəyyən etmək istəyir.

Strategiyanın başqa mühüm xətti Monro doktrinasının yenilənmiş formasıdır. ABŞ üçün əsas prioritet Qərb Yarımkürəsi elan olunur. Bu, Amerikanın öz coğrafiyasına qayıtması, uzun və riskli qlobal öhdəliklərdən imtina etməsi deməkdir. Pandemiya dövründə tədarük zəncirlərinin dağılması Vaşinqtona göstərdi ki, uzaq regionlara həddindən artıq bağlılıq təhlükəlidir. Buna görə ABŞ istehsalı, resursları və təhlükəsizliyi öz ətrafında cəmləmək niyyətindədir. Bu yanaşma beynəlxalq münasibətlərdə sferalar dövrünün qayıtdığını göstərir. Rəsmi olaraq bu termin açıq elan olunmur, lakin sənədin ruhu məhz bunu diktə edir. ABŞ öz yarımkürəsini qoruyur, Çin Asiya-Sakit okean regionunda təsirini artırır, Rusiya isə Avrasiya məkanında təhlükəsizlik məsələlərinə xüsusi həssaslıq göstərir. Universal qaydalar yerini güc balansına verir. Nəticədə "kollektiv Qərb" anlayışı faktiki olaraq mənasını itirir. Bu anlayış XX əsrin ikinci yarısında yaranmış süni konstruksiya idi və onu yaradan tarixi şərait artıq mövcud deyil. Amerika özünə qayıdır, Avropa isə nə edəcəyini bilmir. Avropa İttifaqının daxili parçalanması, milli dövlətlərin ön plana çıxması və transatlantik birliyin zəifləməsi artıq ehtimal yox, prosesdir.

ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyası hələ tam icra olunan siyasət deyil, niyyətlərin bəyanıdır. Lakin beynəlxalq siyasətdə bəzən niyyətin özü belə kifayət edir ki, köhnə sistem sarsılsın. Avropa artıq əvvəlki kimi ABŞ-ın arxasında gizlənə bilməyəcək. Dünya isə prinsip yox, güc üzərində qurulan yeni mərhələyə qədəm qoyur. Amerika bunu elan edəndən sonra istər-istəməz nəzərlər Avropaya çevrilir: bu dünyada o, kim, yaxud nə olacaq?

Avropa uzun illər Türkiyəni, Azərbaycanı bəyənmirdi. Daha doğrusu, bəyənməmək də yox, bizi bilərəkdən görməzliyə vururdu. Sanki bu iki dövlət Avropanın siyasi xəritəsində mövcud deyildi. Türkiyə "çox böyük, çox müstəqil, çox iddialı" idi, Azərbaycan isə "çox prinsipial, çox qürurlu, çox ötkəm". Avropa üçün bu cür tərəfdaşlarla işləmək rahat deyil. Rahat olanlar zəif olanlardır.

Prezident İlham Əliyevin məşhur ifadəsi var: "Nə oldu, Paşinyan?"

Bu sual təkcə bir siyasətçiyə yox, bütöv bir siyasi məktəbə ünvanlanmışdı. İndi isə eyni ritorikanı bir qədər genişləndirib soruşmaq olar: "Necəsən, Makron?" Çünki vəziyyət dəyişib. Özünü dünyanın mərkəzi hesab etdiyi dövran Avropanın əlindən çıxır. ABŞ Avropanı strateji yük kimi görməyə başlayıb. NATO artıq avtomatik mexanizm deyil. Avropa İttifaqı isə böhranları idarə edən yox, böhranlar tərəfindən idarə olunan struktura çevrilib. Bu fonda Fransa kimi ölkələrin iddialı ritorikası artıq tragikomik təsir bağışlayır.

Fransa uzun müddət Ermənistan üzərindən Cənubi Qafqazda "mən buradayam" görüntüsü yaratmağa çalışdı. Ermənistan da bu oyunu həvəslə oynadı. Kim Kardaşyan siyasəti - yəni daim kiməsə sığınmaq, emosional çağırışlar etmək, dramatik jestlərlə diqqət çəkmək - İrəvanda sürətlə mənimsəndi. Parisdə də bu modelə simpatiya böyükdür. Amma problem ondadır ki, bu siyasət real güc yaratmır, sadəcə görüntü yaradır.

ABŞ geri çəkilir. Avropa parçalanmaq təhlükəsi ilə qarşılaşa bilər. Fransa Afrikadan sıxışdırılıb çıxarılır. Almaniya liderlik böhranındadır. İngiltərə Avropadan "Brexit"lə çıxanda bunu romantik suverenlik şüarları naminə etmədi, London çox sadə, çox soyuq, çox da praqmatik hesab apardı: öz varidatını işləmək istəməyən, əl açıb kömək diləyən ölkələrə yedirtmək istəmədi. Britaniyalılar başa düşdülər ki, Avropa İttifaqı artıq istehsal edənlərin yox, xərcləyənlərin klubuna çevrilib. Yunanıstan nümunəsi hər şeyi izah edirdi: borc, borc, yenə borc, adı da "Avropa həmrəyliyi". "Brexit"in fəlsəfəsi bir cümləyə sığırdı: "Hərə öz qayğısına qalsın. Bu, Avropanın xoşuna gəlmədi, çünki Avropa uzun illər başqalarının hesabına mənəvi üstünlük nümayiş etdirməyə öyrəşmişdi. Demokratiya dərsləri verirdi, korrupsiya indeksləri qondarırdı, kimə necə yaşamağı izah edirdi. Amma problem ondadır ki, başqalarına barmaqla yol göstərənlərin özlərinin əlləri çirk içindəydi.

Avropa Parlamentinin vitse-prezidenti olmuş Eva Kaili Qətərdən rüşvət alma ittihamı ilə həbs edildi. Çantalarla nağd pul, "dəyərlər Avropası", insan haqları və pulla dolu seyflər. Bu qalmaqal yeni tarixə "Qatargate" kimi düşdü. Onunla birlikdə Avropa Parlamentinin keçmiş deputatı Antonio Panzeri də ifşa olundu - illərlə lobbiçilik adı altında rüşvət şəbəkəsi qurduğu üzə çıxdı. Belçikanın ədliyyə naziri olmuş, Avropa Komissarlığında yüksək vəzifə tutmuş Didier Reynders maliyyə maxinasiyaları və çirkli pulların yuyulması ilə bağlı istintaqa cəlb edildi. Yəni Avropada qanunun aliliyindən danışan adamın özü hüquq-mühafizə orqanlarının hədəfinə çevrildi.

Fransaya baxaq - demokratiya mühazirələrinin daimi müəllifi olan ölkəyə. Bu ölkənin sabiq prezidenti Nikola Sarkozi korrupsiya və nüfuz alverinə görə məhkum olundu. Ondan əvvəl baş nazir olmuş Fransua Fillon dövlət vəsaitlərinin mənimsənilməsi ittihamı ilə məhkəmə qarşısına çıxarıldı. Daha əvvəllər Avropanın "ağsaqqalı" kimi təqdim edilən Kristian Laqard dövlət vəsaitlərinin israfına görə günahkar bilinmişdi. Siyahı uzundur, sadəcə, adlar dəyişir. Yəni Avropa başqalarına korrupsiya ilə mübarizə dərsi keçə-keçə öz bataqlığında çapalayan sistemə çevrilib.

İndi bu Avropa Türkiyə və Azərbaycana "dəyərlərdən", "institusional idarəetmədən", "şəffaflıqdan" danışmağa çalışır. Amma artıq o köhnə tribunalar yoxdur, artıq kimsə bu nitqləri ciddi qəbul etmir. Çünki vaxtilə aləmə güzgü tutanların güzgüsü öz əlində sındı. İroniyanın zirvəsi buradadır: Türkiyə və Azərbaycanı uzun illər kənarda saxlayan Avropa dünya dəyişməyə başlayandan, ABŞ geri çəkiləndən, köhnə himayəçilər səhnəni tərk edəndən yeni dayaqlar axtarmağa başlayıb. Ola bilsin, dayaq duran yenə Türkiyə və Azərbaycan olacaq. Amma artıq şərtlər dəyişib, artıq kim kimə dərs verəcək məsələsi yoxdur, indi münasibətlər şaquli yox, üfüqi şəkildə qurulacaq. Avropa bunu qəbul etməsə də, reallıq budur: demokratiya təbliğatla yox, məsuliyyətlə olur, əxlaq tribunadan yox, davranışdan oxunur. Korrupsiya haqqında danışmaq üçün əvvəlcə öz cibini yoxlamalısan. Britaniya bunu anladı və çıxdı. Qalanlar isə hələ də bir-birinə baxıb soruşur: kimdir günahkar? Cavab sadədir: hər kəs payına düşən qədər günahkardır.

Türkiyə və Azərbaycanı kənarda saxlamaqla Avropa güclənmədi, əksinə, özünü zəiflətdi. İndi isə yeni dünya nizamında yer tapmaq üçün qapıları döyməli olacaq. Türkiyə bu gün regional gücdür, NATO-nun ikinci hərbi qüdrətinə sahib siyasi subyektdir, Qara dənizdən Yaxın Şərqə qədər təsir imkanına malikdir. Azərbaycan da Avropanın özünə himayədar axtaran ölkələrindən birini və Ermənistanı himayəyə götürə bilər. Ölkəmiz bu gün enerji təhlükəsizliyində açar dövlətdir, Cənubi Qafqazın faktiki lideridir, öz suverenliyini döyüş meydanında və diplomatiyada təsdiqləmiş aktordur.

Tarixin üzü soyuq, hökmü qəddardır: avropalılar vaxtilə masaya dəvət etmədiklərini indi masalarının başında oturtmağa məcbur qalıblar. Dünən dərs keçmək istəyirdilər, bu gün dialoq axtarırlar. Dünən ultimatum dilində danışırdılar, bu gün "regional əməkdaşlıq" termininə sığınıblar. Dünən görmədiklərini bu gün soraqlamağa başlayıblar. COP-29 tədbirini boykot üçün başqa ölkə liderlərinə zəng vuranlar bundan sonra Azərbaycanın bir işarəsiylə Bakıya qaça-qaça gələcəklər. Amma bu dəfə oyun qaydalarını başqaları yazacaq...



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Nikol kimdən və nədən qorxur?

## Ermənistanın baş naziri Aİ-dən kömək istəyir

Ermənistanda siyasi vəziyyət yenidən gərginləşə bilər. Belə ki, xaricdən dəstəklənən revanşist müxalif qrupların, eləcə də kilsənin seçkiqabağı təxribatlara əl atacağından ehtiyat edən baş nazir Nikol Paşinyan "qabaqlayıcı tədbirlər" görməyə hazırlaşır. Bir çox siyasi mütəxəssislərin fikrincə, xüsusilə, Ukrayna müharibəsinin sülh prosesinə doğru yaxınlaşması erməni baş naziri narahat edən amillərdəndir - o baxımdan ki, Paşinyan ölkəsinin "yönünün" Avropaya tərəf "çevirməsi"nin "cəzasını" almaqdan çəkinir. Başqa sözlə, gələn ilin əvvəlində Ukraynada vəziyyətin stabilləşməsi fonunda Paşinyan parlament seçkiləri ilə bağlı müəyyən təhdidlərin formalaşacağını düşünür. Hətta yerli siyasətçilər onun seçkiqabağı proseslə bağlı Aİ-yə müraciətini məhz bu kontekstdə dəyərləndirirlər.

### Avropa Paşinyanı "ürəkləndirdi"...

Xatırladaq ki, bir neçə gün öncə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas bildirmişdi ki, Avropa İttifaqına üzv dövlətlərin xarici işlər nazirlərinin iclasında Ermənistan məsələsi də müzakirə ediləcək. O bildirmişdi ki, "növbəti il Ermənistanda seçkilər keçiriləcək. Bu gün biz Ermənistana bu məsələdə necə kömək edə biləcəyimizi müzakirə edəcəyik. Ermənistan xaricdən müdaxilənin qarşısını almaq üçün bizdən kömək istəyib", - Aİ rəsmisi deyib.

Erməni nəşrləri Kallasın fikirlərini, 2026-cı il parlament seçkilərini yarana biləcək təhdid fonunda təhlil edərək onun seçkilər ərəfəsində Rusiyanın dezinformasiya kampaniyasını gücləndirməyə başlama ehtimalına işarə etdiyini bildirmişdilər. Qeyd edək ki, Ermənistanın xarici işlər nazirliyi Brüsseldə nazir Ararat Mirzoyanla Aİ Xarici İşlər Nazirləri Şurasının üzvləri arasında keçirilən görüşdən sonra Aİ üzv dövlətlərinin Ermənistanın hibrid təhdidlərə qarşı mübarizəyə dəstək ifadə etdiklərini yayıb. Daha əvvəl isə Kallas Ermənistan üçün 15 milyon avroluq yardım paketi elan etmişdi.

### Erkən seçki ehtimalı güclənir

Sözügedən "hibrid təhlükə" təhdidi vurğulandığı kimi, xarici müdaxilələri əhatə edir. Qeyd olunduğu kimi, İrəvan Ukrayna müharibəsinin bitməsindən sonra özünə qarşı təhlükələrin yaranmasından ehtiyat edir. Hətta bəzi siyasi ekspertlər Paşinyanın seçkinin geri çəkilməsi ilə bağlı göstəriş verəcəyi ehtimalını real sayır. Nəzərə alsaq ki, seçkiyə təxminən 7 ay müddət qalmasına baxmayaraq hakim "Vətəndaş müqaviləsi" partiyası artıq oktyabrdan seçki kampaniyasına start verib. Rəm də bu səbəbdən Paşinyanın erkən seçkilərlə bağlı niyyətini gerçəkləşdirmə ehtimalı irəli sürülür. Xatırladaq ki, partiyanın seçki kampaniyasına Baş nazirin aparat rəhbəri Arayik Harutyunyan rəhbərlik edəcək.



### Revanşist müxalifət zərərsizləşdirilir...

Əslində Paşinyanın erkən seçki ehtimalına söykənən addımları yalnız xarici təsirlərdən qorunmaq, seçkilərə üçüncü tərəflərin müdaxilə imkanlarını məhdudlaşdırmaq xarakteri daşımır. Bu qərar həm də son vaxtlar ölkə daxilində yaranan gərginliklərdən istifadə edərək, genişmiqyaslı iğtişaş törətmək planı quran revanşist müxalif qrupların və digər qüvvələrin (xüsusilə kilsənin) təhdidindən ortaya çıxüır. Nəzərə alsaq lazımdır ki, son aylarda sosial şəbəkələrdə keçirilən reytinq sorğularında da Paşinyan əvvəlki qədər dəstəklənmir - bu da ortada olan seçki təhdidinin bir hissəsidir.

Düzdür, revanşist müxalifət 2025-ci il ərzində dəfələrlə "ağır" siyasi zərbələr alıb. Məsələn, Paşinyanın Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan hfqqında bəzi sənədləri ictimailəşdirməsi, Ermənistanın illərlə for-post statusunda olmasının günahının məhz bu insanlarda olmasını demək olar ki, sübuta yetirməsi revanşist qrupu müəyyən mənada "zərərsizləşdirib". İndki halda, revanşist müxalifətin adıçəkilən şəxslərin liderliyi ilə seçkiyə qatılması qarşılığında qələbə qazanması ehtimalı çox aşağıdır. Hətta qruplaşmanın "yeni lider" planı da iflasa uğrayıb - Robert Koçaryanın oğlu Levon Koçaryan gözləntiləri doğrultmur. Vaxtilə qondarma seapartçı qruplaşmada Koçaryanla "çiyin-çiyinə" dayanan Vitali Balansanyana isə güvənilmir. Koçaryanla Sarkisyanı dəstəkləyən xarici qüvvələr Balansanyanın Paşinyanı devirə biləcək səviyyədə olmadığını düşünür.

Beləliklə, siyasi rəqiblərin zəifliyi ortadadır - belə isə niyə Paşinyan çəkinir və ya qorxur? Demək ki, Paşinyanın qorxusu heç də müxalifətdən deyil...

### Kilsəyə qarşı kilsə...

Paşinyanın qorxusu heç də revanşist qruplaşmadan deyil. Erməni baş nazik aylardır ki, mübarizə apardığı kilsə ilə savaşında tam qələbə qazana bilmir. II Qareginin erməni katalikosu postundan getməsi üçün çalışan Paşinyan müəyyən addımlar belə atıb - Qareginin gizli dosyası ictimailəşdirilib, onun kilsə nümayəndəsi adına yaraşmayan hərəkətlərini ifşa edib. Paşinyan hətta Qareginin şimaldan təlimatlar alması, verilən göstərişləri yerinə yetirməsi ilə bağlı da fikirləri bölüşüb. Bununla belə, illərdir Ermənistanın istər dövlət idarəçiliyində, istər ordu sistemində, istərsə də ideoloji sektorda hakim qüvvə kimi tanınan kilsəni bu qədər rahat "oyundan çıxarmaq" mümkün deyil.

Hətta bu günlərdə baş naziri Nikol Paşinyanın revanşistlərə və xüsusilə kilsəyə son zərbəni vurmağa hazırlaşması ilə bağlı xəbərlər yayılıb. Belə ki, erməni mətbuatın yazdığına görə, Paşinyan artıq hakimiyyətin maraqlarına xidmət edən və fəaliyyət planı hazırlayan din xadimlərindən ibarət qrupunu formalaşdırıb. İddialara görə, bu din xadimləri keşişləri II Qareginə qarşı qaldırmalıdır. Bu qrupun fəaliyyəti isə erməni kilsəsində narazılıq yarada və keşişlərin II Qareginə qarşı qiyamına gətirib çıxara bilər. Nəticədə II Qaregin Eçmiədzindəki iqamətgahını boşaltmağa və vəzifəsini tərk etməyə məcbur olacaq.

Erməni mətbuatının iddiasına görə, narazı din xadimlərinə II Qaregin tərəfindən ruhani dərəcəsindən məhrum edilmiş Ter Aram (Stepan Asatryan) başçılıq edir. Hətta Ter Aramın istədiyi kimi hərəkət etmək üçün hakimiyyətdən bütün zəmanətləri aldığı bildirilir. Bu isə Paşinyan II Qareginə qarşı son hücumu kimi dəyərləndirilir.

Beləliklə, Paşinyanın həm daxili sabitliklə bağlı narahatlıqlar yaşaması, həm də xarici müdaxilələrdən çəkinməsi onun Aİ-dən kömək istəməsinə yol açıb.

**SADİQ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







## Azərbaycanda və xarici ölkələrdə qış turizmi...

Qış turizmi soyuğu sevənlər üçün təkcə əyləncə deyil, həm də təbiətin tamam fərqli bir üzünü kəşf etmək imkanıdır. Qarın sakitliyi, dağların təmiz havası və buzlu mənzərələrin yaratdığı ecazkar atmosfer bu mövsümü daha da cazibədar edir. Qış turizmi həm macəra sevənləri, həm də sakitlik axtaranları özünə cəlb edir. Soyuq hava bəzən elə bir hiss yaradır ki, sanki təbiət susur, məhz bu sükutun içində insan özünü daha aydın duyur.

Bu gün həm Azərbaycanda, həm də dünyada qış turizmi sürətlə inkişaf edir. Lakin hər regionun özünəməxsus üstünlükləri, fərqləri və ortaq cəhətləri var.

## Azərbaycanda və dünyada qış turizmi...

Azərbaycanda qış turizminin əsas mərkəzləri Qusar (Şahdağ), Qəbələ (Tufandağ) və Naxçıvanın dağlıq əraziləridir. Bu bölgələr həm təmiz dağ havası, həm də müasir infrastrukturla diqqət çəkir. Xüsusilə Şahdağ Qafqazın ən böyük qış turizm mərkəzlərindən biri hesab olunur. Burada yeni başlayanlar üçün yüngül traslar, peşəkar xizəkçilər üçün isə daha çətin enişlər mövcuddur. Azərbaycanın qış turizminin üstünlüklərindən biri də məsafələrin qısa olmasıdır - həm istirahət, həm də aktiv idman üçün uzağa getməyə ehtiyac qalmır. Üstəlik, milli mətbəxin isti yeməkləri, insanların qonaqpərvərliyi və bölgələrin sakit atmosferi bu təcrübəni daha da cazibədar edir.

Dünyada isə qış turizmi daha geniş miqyas və rəngarəngliklə inkişaf edib. İsveçrə, Avstriya, Fransa və İtaliya Alp dağları ilə məşhurdur. Bu ölkələrdəki xizək kurortları həm mükəmməl infrastruktur, həm də uzun illərdən bəri formalaşmış qış turizmi ənənələri ilə seçilir. Kanada və Norveçdə isə buz otelləri, qütb işıqları, “husky” turları kimi unikal təcrübələr xüsusilə populyardır. Bu ölkələrdə qış turizmi yalnız xizək idmanı ilə məhdudlaşmır, mədəniyyət, təbiət və ekstremal fəaliyyətlərin birləşməsi onu daha maraqlı edir.

## Ortaq cəhətlər var

Fərqlər əsasən miqyas və infrastruktur səviyyəsindədir. Dünyanın məşhur qış mərkəzləri illərdir beynəlxalq turizmə hesablandığından xidmətlər daha peşəkar və geniş çeşidlidir. Azərbaycanda isə təbiət gözəlliyi, əlçatanlıq və sakitlik ön plana çıxır. Lakin hər iki məkanda qış turizmini birləşdirən ortaq cəhətlər də çoxdur: təmiz hava, dağların sükutu, xizək imkanları, qarlı kəndlərin özünəməxsus ab-havası və qışın insana bəxş etdiyi təzələyici enerji.

## Bölgələrimizdə Yeni ili qarşılamağın qiymətləri

Qış turizmindən söz açmışkən, Yeni ili paytaxtdan kənarda, bölgələrimizdə, həm də xarici ölkələrdə qeyd edənlər var. Yeni ili xarici ölkələrdə qarşılayan yerli turistlər əsasən, Türkiyə, Rusiya, Gürcüstan və Dubaya səfər edirlər.

Bayramla əlaqəli olaraq yerli otellər turistlər üçün də şənlik proqramı təklif edir. Burada istirahət xaricdən heç də ucuz başa gəlmir. Ekspertlərin fikrincə, turpaketlərin qiymətlərində bayram günü yaxınlaşdıqca bahalaşma müşahidə edilir.

Bölgələrimizdə fəaliyyət göstərən əksər mehmanxanalar Yeni il gecəsini şou-proqram ilə yaddaqalan etməyə hazırlaşırlar. 31 dekabr 2025 - 2 yanvar 2026-cı il tarixlərini əhatə edən (2 gecə 3 gün) qiymətlərə 2 nəfər üçün oteldə qalmaq, qidalanma, qala gecəsi, canlı musiqi, gündəlik əyləncə proqramları, hovuz, sauna, hamam və s. imkanlardan istifadə daxildir.

Bir sıra hotellərin Yeni il münasibətilə qiymət təkliflərini təqdim edirik:

Shamakhi Palace Sharadil: 1980 manatdan başlayan qiymətlərlə

Qafqaz Tufandag Hotel: 1699 manatdan başlayan qiymətlərlə

Basqal Resort & Spa: 1660 manatdan başlayan qiymətlərlə

Shabran Wellbeing Resort: 1650 manatdan başlayan qiymətlərlə

Qafqaz Riverside Hotel: 1595 manatdan başlayan qiymətlərlə

Lankaran Springs Wellness Resort: 1500 manatdan başlayan qiymətlərlə

Marxal Resort & Spa: 1420 manatdan başlayan qiymətlərlə

Quba Macara Lake Park: 1380 - 2150 manat civarında

Lachin Resort: 1240 manatdan başlayan qiymətlərlə

Şah Əsəri Xankəndi: 960 - 1620 manat civarında

Şuşa Hotel: 950 manatdan başlayan qiymətlərlə

Chinar Health Hotel: 620 manatdan başlayan qiymətlərlə

Qeyd edək ki, qiymətlər otelin imkanlarından və xidmətlərdən asılı olaraq dəyişə bilir. Yeni ili 3 ulduzlu otellərdə daha münasib qiymətlər ilə qarşılamaq mümkündür.

## Xarici ölkələrdə qeyd etmək neçəyə başa gəlir?

Bayramı maraqlı qeyd etmək istəyən bəzi vətəndaşlarımız xarici ölkələrə də üz tutmaq niyyətindədirlər. İlk növbədə Gürcüstan çox yaxşı seçimdir. Xüsusilə, Tbilisi və Batumi Yeni il ərəfəsində bayram ab-havası, münasib qiymətləri və yaxın məsafəsi ilə fərqlənir. Bundan əlavə, Türkiyə hər zaman populyardır. İstanbul, Kapadokiya və Bursa kimi şəhərlər həm alış-veriş, həm də yeni il proqramları baxımından cəlbedicidir.

Daha fərqli mədəniyyət görmək istəyənlər üçün Balkan ölkələri, xüsusilə Serbiya və Monteneqro münasib qiymətlər və maraqlı yeni il tədbirləri ilə seçilir.

Bir qədər çox büdcəli, amma ekzotik seçim kimi isə Misir və BƏƏ (Dubay) də tövsiyə olunur. Bu ölkələrdə həm istirahət, həm də bayram əhval-ruhiyyəsi yüksək səviyyədə olur. Ümumilikdə, vətəndaşlarımız büdcələrinə və maraqlarına uyğun olaraq bu istiqamətlərdən rahatlıqla seçim edə bilərlər.

*Yeganə BAYRAMOVA*

# Bir ölkədən digərinə...

Bir coğrafiyadan digərinə köç etmək təkcə məkan dəyişikliyi deyil. Bu, insanın yaddaşında və taleyində baş verən dərin bir dönüşdür. Hər miqrant özlüyündə bir hekayə daşıyır: geridə qalan evlərin səssizliyi, tanış küçələrin xatirəsi və qarşıda duran naməlum sabahların ümid və qorxusu...

Miqrasiya və miqrantlar mövzusu müasir dünyada geniş müzakirələrə səbəb olan aktual məsələdir. Baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötüşmür. Qanuni və qanunsuz, beynəlxalq və ölkədaxili, könüllü və məcburi, daimi və müvəqqəti, ailə birliyi və “beyin axını” kriteriyaları ilə təsnifatlaşdırılan miqrasiyanın coğrafiyası və həcmi genişlənib.

Son dövrlər miqrasiyanın yeni tipləri - yüksək təsnifatlı kadrların miqrasiyası və çox vaxt qanunsuz miqrasiyaya əsas verən ixtisassız şəxslərin miqrasiyası formalaşıb. Məcburi miqrasiya tendensiyası da artıb. Hər dövlətin bu prosesi milli maraqlar, miqrasiya qanunları ilə tənzimləməsi son dərəcə vacib məsələdir. Bu bəşəri prosesin genişlənməsinin əsasında müxtəlif səbəblər durur. Səbəblər isə sosial-iqtisadi, mədəni-siyasi, etnik-dini məqamlarla bağlı məcburi və ya könüllü xarakterlidir.

## Demoqrafik proseslərin formalaşmasında...

Bu gün miqrasiya bütün dünyada sosial dəyişikliklərin bir faktoru kimi diqqət çəkir. Söz yox ki, miqrasiya demoqrafik proseslərin formalaşmasında mühüm rol oynayır və əhalinin etnik-mədəni tərkibini yaradır. Reallıq budur ki, bu gün beynəlxalq münasibətlər sistemində miqrasiya geosiyasəti artıq yeni formalaşan bir istiqamət statusu qazanıb.

Yeri gəlmişkən, bu gün bütün dünyada Beynəlxalq Miqrant Günüdür. 1990-cı il 18 dekabrda Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Konvensiya qəbul edib. İlk beynəlxalq miqrantlar günü ilə bağlı tədbirlər Filippinin paytaxtı Maniladakı BMT binasında - yerli idarəçilər, xarici diplomatlar və beynəlxalq sivil quruluşlarının nümayəndələri tərəfindən keçirilib. 2000-ci ildə isə BMT Baş Assambleyası Konvensiyanın qəbul olunduğu günü Beynəlxalq Miqrant Günü elan edib. Azərbaycan bu Konvensiyaya 1998-ci ildən qoşulub.

## Dünyanın ən çox miqrantı olan 10 ölkəsi

Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) rəsmi hesabatlarında dünyanın ən çox miqrant olan on ölkəsi açıqlanıb. Hesabata əsasən, dünyada ən çox miqrant olan ölkələr arasında birinci yerdə ABŞ dayanır. Belə ki, hal hazırda bu ölkədə 50,6 milyondan çox miqrant yaşamaqdadır.



## Ən çox miqrant olan ölkələr

İkinci yerdə isə 15,8 milyon miqrantla Almaniya qərarlaşıb. Qəribə olsa da, üçüncü yerdə Səudiyyə Ərəbistanı Krallığıdır ki, burada miqrant sayı 13,5 milyon təşkil edir.

Dördüncü yerdə 11,6 milyon miqrantla Rusiya, beşinci yerdə 9,4 milyon miqrantla Böyük Britaniya qərarlaşıb. Sürətlə inkişaf etməkdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) 8,7 milyon miqrantla altıncı sırada yer alır.

Miqrant sayına görə, Fransa 8,5 milyon miqrantla yeddinci, Kanada 8 milyon miqrantla səkkizinci sıradadır. 7,7 milyon miqrantla doqquzuncu yerdə Avstraliya yer alıb. 10-cu yerdə isə 6,8 milyon miqrantla İspaniya qərarlaşıb.

*Yeganə*

# “Nar” Gəncə şəhərində növbəti regional mağazasını təqdim etdi!

Sərfəli xidmətləri və bölgələrə diqqəti ilə seçilən mobil operator “Nar” növbəti regional mağazasını Gəncə şəhərində istifadəyə verdi. Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti 359c ünvanında açılan yeni mağazada abunəçilərə müştəri xidmətləri, mobil nömrələrin satışı, mobil telefon və aksesuarların təqdim olunması xidmətləri göstərilir.

Açılış mərasimində iştirak edən “Nar”ın baş icraçı direktoru Özgür Genc yerli sakinlərlə görüşərək onların istək və gözləntilərini öyrənib. O, mobil operatorun regionlara xüsusi diqqət siyasətinə sadiq qaldığını bildirib: “Bölgələrdə yaşayan müştərilərə keyfiyyətli xidmət göstərmək baxımından bu mağazalar çox önəmlidir. Regional satış və xidmət şəbəkəmiz sayəsində müştərilərimizin geridönüşlərini yerindəcə öyrənə bilirik.”

Gəncə şəhərinə səfər edən “Nar” rəhbərliyi həmçinin tərəfdaşlıq etdiyi Azərbaycan Texnologiya Universitetinin tələbələri üçün karyera təlimi həyata keçirib. Universitetin rəhbər heyəti ilə görüşən “Nar” rəhbərliyi növbəti il üçün əməkdaşlıq perspektivlərini müzakirə edib.

Qeyd edək ki, mobil operator bölgələrdə açılan hər yeni mağazanı təkcə satış və xidmət şəbəkəsinin genişləndirilməsi olaraq deyil, həm də regionlarla birbaşa əlaqə qurmaq imkanı olaraq dəyərləndirir. 2025-ci il ərzində “Nar” rəhbərliyi Gəncə şəhəri ilə yanaşı Füzuli və Salyan rayonlarında da bənzər mağaza açılışı və maarifləndirici layihələr həyata keçirib.

“Nar”ın həyata keçirdiyi layihələr haqqında daha ətraflı nar.az səhifəsindən öyrənə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.





Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4792
Sifariş: 2555
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova